QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 198 (6162) 6 noyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## "Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik"

*Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib*



Bax 2

## Hikmət Hacıyev: "Xankəndində yolu bağlayan məhz Ermənistandır"

Bax 5



Sərhədsiz reportyorlar təşkilatının 80 nəfər yerli və xarici jurnalistin Xankəndindən təhlükəsiz çıxa bilməməsi ilə bağlı açıqlaması ilə əlaqədar bildiririk ki, Laçın dəhlizi vasitəsilə Xankəndi ilə Ermənistan arasında yolu bağlayan məhz Ermənistandır. Dünən Ermənistan tərəfi açıqlama verərək yolu bağladığını bildirmişdi...

## 40 günə azad olunan ərazilərimiz: TAM SİYAHI



Bax 6

*Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatına başlamasından 40 gün ötür. Bu müddət ərzində Azərbaycan Ordusu müharibə tarixlərinə düşəcək yeni bir səhifə açdı. SİA-nın məlumatına görə, düşmənə ciddi zərbələr vuran ordumuz torpaqlarımızı...*

## Rasim Quliyev: "İran Ermənistanla sərhədləri bağlamalıdır"



*"Son vaxtlar rəsmi olaraq İran İslam Respublikasının Azərbaycanın əzəli torpağı olan Qarabağda apardığı antiterror və yaxud da ermənilərin işğalına cavab olaraq əks-hücum əməliyyatına İranın həm rəhbərlik, rəsmi şəxslər səviyyəsində, həm də İranın ali dini lideri...*

Bax 5

## Düşmənin Tonaşendəki hərbi infrastrukturu dağıdılıb

*Cəbhənin Tərtər istiqamətində Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin hərbi infrastrukturuna ciddi...*

Bax 6



## Müdafiə Nazirliyi: Ermənistan feyk xəbərlər yayır



*Son sutka ərzində əsasən cəbhənin Ağdərə və Xocavənd istiqamətində döyüşlər davam edib, Zəngilan istiqamətində düşmənin təxribatının qarşısı alınıb. SİA-nın məlumatına görə, bunu bu gün keçirilər brifinqdə Müdafiə Nazirliyinin (MN) mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov deyib.*

Bax 5

**Dilqəm Əsgərov və Şahbaz Quliyev Şuşadan Ermənistanın köçürülüb**



Bax 7

**Vüqar Rəhimzadə: "Paşinyan tarixdə "uşaq qatili" kimi qalacaq və daim lənətlənəcək"**



Bax 9

**Ermənistan rəhbərliyi din xadimlərini siyasi oyunlara alət edir**



Bax 7

# "Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik"

## Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**



***- Sabahınız xeyir, cənab Prezident. Bizimlə söhbət etmək, bizə müsahibə vermək üçün vaxt ayırdığınıza görə təşəkkür edirik.***

- Bu imkana görə təşəkkür edirəm.

***- Hazırda Dağlıq Qarabağdakı müharibənin altıncı həftəsi başlayır. Cəbhədə hazırda vəziyyət necədir?***

- Cəbhədəki vəziyyət Azərbaycan Ordusunun üstünlüyünü göstərir. Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik. Yeri gəlmişkən, biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən demək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik.

***- Siz işğal olunmuş 7 rayonun - 5 üstəgəl 2 azad edilməsini istəyirsiniz. Siz onlardan artıq neçəsini azad etmisiniz?***

- Faktiki olaraq, işğal olunmuş rayonlardan 5-dən 4-ü artıq ya tamamilə, ya da qismən azad edilib. Bu gün biz işğal altında olan digər rayonların işğaldan azad edilməsinin aktiv mərhələsindəyik. Qeyd etdiyim kimi, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik və yeri gəlmişkən, biz artıq əsas prinsiplərin bir hissəsini yerinə yetirmişik. Çünki ATƏT-in Minsk qrupu tərəfindən təklif olunan həll üçün əsas prinsiplər faktiki olaraq Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılmasını tələb edirdi. Əfsuslar olsun ki, Ermənistan könüllü şəkildə bunu etmək istəmirdi, ona görə də biz onları bunu etməyə məcbur etməli olduq.

> Biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən demək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik

***- Hər iki tərəf artıq 3 humanitar atəşkəslə bağlı razılığa gəlib. Lakin onlar heç bir neçə dəqiqə də belə çəkməyib. Nəyə görə müharibəni üç dəfə dayandırmaq və danışıqlara başlamaq mümkün olmamışdır?***

- Düşünürəm, bu atəşkəslərin işləməməsinin səbəblərindən biri ondan ibarət idi ki, Ermənistan artıq bizim tərəfimizdən azad edilmiş əraziləri geri almağa cəhd göstərirdi. Başqa sözlə, onları yenidən işğal etmək istədilər. Ona görə də onlar sizin doğru olaraq qeyd etdiyiniz kimi, humanitar məqsədlərlə elan olunmuş bu atəşkəsdən resursları səfərbər etmək və yeni hücuma keçmək üçün istifadə etmək istədilər. Onlar bunu edə bilməyəndə, Ermənistan ərazisindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə ballistik raketlə hücum etdilər. Onlar bunu iki dəfə etdilər. Lakin birinci dəfə oktyabrın 10-da, atəşkəs elan olunandan dərhal sonra etdilər və bunun nəticəsində 10 mülki şəxs həlak oldu, onlarla adam yaralandı. Beləliklə, onlar birinci atəşkəsi kobud şəkildə pozdular. İkinci atəşkəs də elan olunan vaxtdan təxminən 5 dəqiqə sonra onlar tərəfindən pozuldu və üçüncü atəşkəsi onlar dinc şəhər olan Bərdəyə hücum etməklə pozdular. Orada 21 nəfər mülki şəxs qətlə yetirildi, 70 nəfər yaralandı. Beləliklə, hər 3 dəfə bu, Ermənistanın bizə qarşı məqsədli şəkildə təcavüzkar hücumu idi və biz cavab verməli və özümüzü müdafiə etməli olduq.

***- Siz dediniz ki, Ermənistan qoşunlarının çıxarılması ilə bağlı konkret təqvim istəyirsiniz. Ermənistan dedi ki, kompromisə hazırdır, ancaq təslim olmağa, həmin əraziləri təslim etməyə yox. Siz də kompromisə hazırsınız? Bu kompromis necə olacaq?***

- İlk növbədə, bizim mövqeyimiz demək olar ki, bu 40 gün ərzində artıq dəfələrlə bəyan edilib. Mən dəfələrlə demişəm ki, bizim vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünü öz doğma torpaqlarına, onların əsrlərboyu yaşadıqları ərazilərə geri qaytarmaq və bundan sonra həmin ərazidə Azərbaycan əhalisi və erməni icması arasında sülh şəraitində birgəyaşayışı təmin etməkdir. Bizim mövqeyimiz sağlam düşüncəyə, humanitar zəminə əsaslanır və beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənir. Beləliklə, bu, çox açıq-aşkardır. Ermənistan kompromisdən danışanda konkret heç nə demir. Onlar yalnız öz müqəddəratını təyinetmədən danışırlar, amma öz müqəddəratını təyinetmə onlar tərəfdən kompromis deyil. Onlar öz mövqelərində daha dəqiq olmalıdırlar, çünki hazırda o, çox qeyri-müəyyəndir. Ona görə də biz Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxması üçün vaxt cədvəli tələb etdik və biz bunu toqquşmaların ilk günündən tələb etdik. Beləliklə, əgər Ermənistan bizə qulaq assaydı və məntiqlə davransaydı, bu gün biz hazırda qarşılaşdığımız vəziyyətdə olmazdıq. Müharibə bəlkə də bir ay əvvəl bitərdi. Ona görə də Ermənistan tərəfdən kompromis çox dəqiq olmalıdır. Hələ də işğal altında olan Ağdam rayonunun bir hissəsini, Kəlbəcər və Laçını boşaltmaq üçün vaxt cədvəli bizə təqdim edilməlidir, Ermənistanın baş naziri bunu şəxsən bəyan etməlidir. Lakin onlar nəinki bizə vaxt cədvəli vermirlər, onlar həmin əraziləri boşaldacaqlarını demirlər. Sentyabrın 27-dən bu yana bütün bu vaxt ərzində Ermənistanın hərbi-siyasi rəhbərliyi ərazilərin boşaldılacağı barədə heç vaxt heç nə deməyib. Belə olan halda, onlar 7 rayonun qaytarılmasını təmin etmək üçün bu prinsipləri işləyib hazırlamış Minsk qrupunun həmsədrlərinə faktiki olaraq hörmətsizlik nümayiş etdirirlər və faktiki olaraq daha çox eskalasiyaya gətirib çıxarırlar. Beləliklə, biz Ermənistanın baş nazirinin Kəlbəcər, Laçın və Ağdamın qalan hissəsini boşaldacaqlarını açıq şəkildə deməyini gözləyirik.

***- Əgər belə olmasa, Sizin üçün yalnız hərbi variant mövcuddur?***

- Başqa yol qalmır, bilirsiniz, başqa variant yoxdur. Biz hərbi əməliyyatları davam etdirmək istəmirik və mən dəfələrlə demişəm və bu gün də təkrar edə bilərəm, əgər Ermənistanın baş naziri şəxsən özü, bu qan tökülməsinə görə məsuliyyət daşıyan şəxs belə bir bəyanat versə, biz dərhal dayanmağa hazırıq, dərhal. Mən sözünə əməl edən insanam və biz bunu edərik. Lakin o, bunu demir. O, vaxt qazanmaq istəyir, daha çox hərbi yardım əldə etmək üçün atəşkəs istəyir, Azərbaycana qarşı yeni hücumlar etmək və bizim azad etdiyimiz əraziləri geri almaq üçün bu atəşkəsdən istifadə etmək istəyir. Onun niyyəti bundan ibarətdir.

***- Siz hazırda cənab Paşinyanla bir masa arxasında oturmağa hazırsınız, yoxsa bunun bir mənası yoxdur?***

- Xeyr, bunun qətiyyən heç bir mənası yoxdur. Son iki il ərzində mənim onunla çoxsaylı görüşlərim olub, lakin onların hamısı tamamilə səmərəsiz və mənasız olub, ilk görüşlər istisna olmaqla. O, mənə söz vermişdi ki, əgər Azərbaycan dırnaqarası "inqilab"dan sonra ona vaxt versə, o, yaxşı hazırlaşacaq, Ermənistanda siyasi cəhətdən öz mövqeyini gücləndirəcək və sonra əsas prinsipləri yerinə yetirmək üçün konstruktiv şəkildə işləməyə hazır olacaq. Bu, onun Ermənistanda rəhbərliyinin ilk aylarında mənə söylədikləri idi. Lakin bir ildən sonra o, tamamilə fərqli sözlər dedi.

**Ardı Səh. 3**

# “Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik”

## *Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib*

**Əvvəli Səh. 2**

O dedi ki, Azərbaycana qaytarılası bir santimetr belə torpaq yoxdur. Dedi ki, “Qarabağ Ermənistandır”. Dedi ki, Azərbaycan Dağlıq Qarabağdakı qondarma qurumun dırnaqarası “rəhbərliyi” ilə danışıqlar aparmalıdır. Beləliklə, o, danışıqlar prosesini pozmaq üçün hər şeyi etdi. Ona görə də hazırda mən onunla görüşməkdə bir məna görmürəm. Bu yaxınlarda bizim xarici işlər nazirlərimiz Cenevrədə görüşüblər və mən düşünürəm ki, hazırda bu, təmaslar üçün doğru formatdır.

***- Siz dediniz ki, demək olar 30 il ərzində Minsk qrupu işğal edilmiş ərazilərin qaytarılması üçün heç nə etməmişdir və ya bu istiqamətdə heç bir irəliləyişə nail olmamışdır. Hazırda ABŞ, Rusiya və Fransadan gözləntiniz nədir?***

- Bəli, siz haqlısınız. Mən demişəm ki, Minsk qrupu heç bir nəticə əldə etməyib. Lakin mən, eyni zamanda, demişəm ki, onların fəaliyyətinə tamamilə göz yuma və onları yalnız tənqid edə bilmərəm. Çünki hazırda masada olan əsas prinsiplər Minsk qrupunun köməyi ilə işlənib hazırlanmış prinsiplərdir. Beləliklə, onlar işlədilər, çalışdılar. Lakin onlar əraziləri boşaltması ilə bağlı Ermənistana təzyiq göstərmək üçün əllərində olan bütün alətlərdən istifadə etmədilər. Bu ölkələrdən hər birinin birtərəfli qaydada Ermənistana təsir etmək üçün kifayət qədər vasitələri var, istər hərbi dəstək olsun, istər siyasi dəstək, iqtisadi dəstək, diaspor dəstəyi və s. Lakin onlar əllərində olan bu alətlərdən istifadə etmədilər, onlar BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olaraq özlərinin qəbul etdikləri BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasında israr etmədilər. Ona görə də nəticənin olmaması faktı, əlbəttə ki, onların bacarmadığından çox istəmədiyini nümayiş etdirir. Əgər onlar bacarmadılarsa, kim bacarar? BMT Təhlükəsizlik Şurasının 3 daimi üzvü kiçik, yoxsullaşmış, asılı Ermənistana təsir edə bilmir? Onlar, sadəcə olaraq, istəmədilər. Onlar vəziyyətin sabit olmasını istəyirdilər, bu, doğrudur. Onlar sülh ssenarisini istəyirdilər. Lakin onlar görəndə ki, demək olar 30 ildir sülh ssenarisi yoxdur və Ermənistanın yeni hökuməti bəyanatlar və əməllərlə prosesi faktiki olaraq məhv edir, düşünürəm ki, onlar hərəkətə keçməli idilər. Mən dəfələrlə onların liderləri, yüksək rütbəli rəsmiləri ilə danışaraq çağırış etmişəm ki, Ermənistana təzyiq göstərin, sanksiya tətbiq edin. Əgər sanksiya tətbiq etmək istəmirsinizsə, ən azı bunu dilə gətirin, elan edin ki, sanksiyalar tətbiq olunacaq, əks halda, bu təcavüzkara təzyiq göstərmək üçün başqa heç bir mexanizm olmayacaq. Beləliklə, düşünürəm, bu gün onlar dərk ediblər ki, uzun illər “münaqişənin hərbi həlli yoxdur” deməklə səhv ediblər. Biz bu reallığı dəyişdik. Hərbi həll yolu var. Lakin bizim bu gün danışdığımız ondan ibarətdir ki, gəlin, hərbi həllin həmin səhifəsini bağlayaq və siyasi həllə keçək. Beləliklə, hərbi-siyasi həll üstünlük təşkil etməlidir. Əgər Ermənistanın baş naziri mənim artıq ondan tələb etdiyimi desə, biz bu gün dayanmağa hazırıq. İndi sülh prosesi artıq qismən yerinə yetirilmiş əsas prinsiplərin qalan hissəsinin icrasına əsaslanmalıdır. Bizə Kəlbəcər, Laçın və Ağdamın bir hissəsinin boşaldılması ilə bağlı dəqiq vaxt cədvəli lazımdır. Bundan sonra düşünürəm ki, regiona sülh gələcək.



> Biz hərbi əməliyyatları davam etdirmək istəmirik və mən dəfələrlə demişəm və bu gün də təkrar edə bilərəm, əgər Ermənistanın baş naziri şəxsən özü, bu qan tökülməsinə görə məsuliyyət daşıyan şəxs belə bir bəyanat versə, biz dərhal dayanmağa hazırıq, dərhal

***- Mən Sizdən “Amnesty International”ın faktiki olaraq hər iki tərəfin kasetli bombalardan istifadə etməsinə dair bəyanatları ilə bağlı soruşmaq istəyirəm. Siz də, rəsmi İrəvan da qeyd edirsiniz ki, tərəflər mülki əhaliyə qarşı fosfor tərkibli sursatdan istifadə edir. Siz beynəlxalq konvensiyalarla qadağan edilən silahlardan istifadə edirsiniz?***

- Biz qadağan olunmuş silahlardan istifadə etmirik. Bizim ərazi bütövlüyümüzü bərpa etmək üçün kifayət qədər sursatımız var. Bu, birincisi. İkincisi, biz mülki şəxslərə hücum etmirik. Oktyabrın 10-dan sonra Dağlıq Qarabağdakı şəhərlərə hücum etmirik. Ondan əvvəl, bəli, bunu qəbul edirik. Lakin bu, ona görə oldu ki, Ermənistan ordusunun hərbi hissələrinin və infrastrukturunun çoxu Dağlıq Qarabağın dırnaqarası “paytaxtı” olan Xankəndidə cəmləşmişdi. Ona görə də biz bunu etməli idik. Biz təhlükəsizliyimizi təmin etmək və əməliyyatımızın daha səmərəli olması üçün həmin mühüm hərbi obyektləri vurmalı idik. Lakin humanitar atəşkəs elan olunandan sonra, - bunu dəfələrlə elan etmişik, - biz heç vaxt insanların yaşadığı heç bir şəhəri və ya kəndi vurmamışıq. Buna zidd olaraq ermənilər nə etdi. Onlar Ermənistan ərazisindən Gəncəyə ballistik raket atdılar və bu, sübuta yetirilib. Baxmayaraq ki, Ermənistanın baş naziri bunu onların etmədiyini dedi. Lakin bu, gülüncdür. Çünki ballistik raketin buraxılışı peyklər vasitəsilə müşahidə olunur. Hər kəs onun haradan buraxıldığını və onun hədəfinin nə olduğunu bilir. Gəncədə mülki şəxslərin yaşadığı əraziləri qəsdən iki dəfə vurdular. Onlar Bərdəyə çox dağıdıcı “Smerç” raketləri ilə iki dəfə zərbə endirdilər və yalnız bir hücum nəticəsində 21 insan öldürülmüş və 70 insan yaralanmışdır. Bir çox hücumlar olmuşdur. Onlar Tərtərdə dəfn mərasiminə zərbə vurdular, bu, tamamilə insan davranışının bütün normalarından kənar bir şeydir. İnsanlar dünyasını dəyişmiş şəxsi dəfn edəndə onlar qəbiristanlığı vurdular və dörd nəfər qətlə yetirildi. Onların kasetli bombalardan istifadə etmələri beynəlxalq media və QHT-lər tərəfindən təsdiq olunmuşdur. Əminəm ki, bu barədə ilk dəfə məlumat verən oranı ziyarət etmiş beynəlxalq media olmuşdur. “Amnesty International” və “Human Rights Watch” təşkilatlarının bu halları təsdiq etməkdən savayı başqa bir seçimi yox idi. Lakin sual orasındadır ki, nə üçün onlar birinci növbədə Azərbaycana gəlmədilər? Nə üçün onlar yalnız Ermənistan tərəfindən işləyirdilər? Yalnız beynəlxalq media, Qərb mediası ermənilərin istifadə etdiyi kasetli bombaları göstərdikdən sonra bu iki QHT bunu təsdiq etdi. Onların bunu təsdiq etməsi yaxşı haldır, lakin səmimi desəm, bunun açıq-aşkar olmasını nəzərə alaraq onların bu məsələni necə təsdiq etməməsini də təsəvvürümə gətirə bilmirəm.

***- Rusiya, Sergey Lavrov dünən dedi ki, Dağlıq Qarabağda təqribən iki min muzdlu döyüşür. Bununla bağlı nə deyərdiniz?***

-Mən bu ittihamlara, bu əsassız ittihamlara dəfələrlə cavab vermişəm. Səmimi desəm, təəssüflənirəm ki, bitərəf olmalı, onlara ATƏT tərəfindən verilmiş mandata əsasən hərəkət etməli olan ölkələrin yüksək səviyyəli rəsmiləri təsdiqini tapmamış bu əsassız dırnaqarası “informasiya”dan və şayiələrdən istifadə edirlər. Bu, birincisi. İkincisi, bizdə heç bir muzdlu yoxdur. Mən bu haqda dəfələrlə demişəm. Bizim onlara ehtiyacımız yoxdur. Bizim 100 min döyüşçüdən ibarət ordumuz var, biz tam səfərbərlik elan etsək, bundan bir neçə dəfə çox toplaya bilərik. Lakin biz Ermənistandan fərqli olaraq bunu etmirik. Bizim tərəfimizdə hər hansı bir əcnəbi döyüşçünün vuruşması ilə bağlı heç bir sübut yoxdur. Bu bir aydan çox müddət ərzində bizə heç bir sübut, heç bir sənəd, heç bir dəlil təqdim edilməmişdir. Yalnız bəyanatlar. Bəs, onda nə üçün onlar Ermənistan tərəfində baş verənləri, Ermənistan tərəfindən neçə muzdlunun döyüşdüyünü görmürlər? Nə üçün bizi ittiham etməyə çalışan nə Rusiya, nə də Fransa bunun haqqında heç nə deməyib? Bizdə artıq əcnəbi pasportları olan zərərsizləşdirilmiş insanların siyahısı var. Amerikalı, fransalı, kanadalı, livanlı, iraqlı, postsovet məkanı ölkələrindən, onlarla Gürcüstandandır. Bəli, onlar o ölkələrdə yaşayan ermənilərdir, lakin bu, heç bir fərq etmir.

**Ardı Səh. 4**

# "Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik"

## *Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib*

Əvvəli Səh. 3

Əgər onlar başqa ölkələrin vətəndaşlarıdırsa, onların orada olması qanunsuz hesab edilir. Bu vaxtadək bu məsələ barədə heç nə deyilməmişdir, amma bizim sübutlarımız var. Bizim əlimizdə pasportlar var. Bizim sübutumuz var, video var. Bunun haqqında heç nə deyilməyib. Bu, bizim tərəfimizdən qəbul edilə bilməyən selektiv bir yanaşmadır, bu, vasitəçilərin mandatına uyğun deyil. Mən dəfələrlə demişəm, vasitəçilər bitərəf olmalıdırlar. Əgər onlar tərəf tutularsa, bu, onların işidir, lakin onda vasitəçilikdən çıxmalıdırlar. Hər bir ölkənin istənilən ölkəyə yaxşı və ya pis münasibəti ola bilər. Biz müəyyən səbəblər üzündən bəzi ölkələr tərəfindən ermənilərə qarşı xüsusi hisslərin olduğunu başa düşürük. Bunu öz ölkələrinin adından deyirlərsə, biz buna etiraz etmirik. Lakin əgər siz vasitəçisinizsə, xahiş edirəm, bitərəf olun və ittihamlardan uzaq durun. Əgər biz bizi muzdlularla bağlı ittiham edənləri dünyanın müxtəlif yerlərində nə etdikləri haqqında ittiham etməyə başlasaq, bu, çox uzun bir məsələ olacaq. Biz bunu etmirik. Buna görə biz tərəfdaşlarımızdan eynisini gözləyirik.

***-Türkiyənin Sizə nəinki siyasi, eyni zamanda, hərbi dəstək də göstərdiyini söyləyənlərə nə deyərdiniz?***

-Mən deyərdim ki, bu növbəti təxribat, növbəti feyk xəbərdir. Türkiyədən heç bir hərbi dəstək yoxdur. Biz Türkiyədən yalnız müasir hərbi avadanlıq alırıq. Bu, həqiqətdir. Bu, dünyada istənilən ordunun paxıllıq edə biləcəyi yeni müasir avadanlıqdır. Türkiyənin hərbi sənaye kompleksi, həqiqətən də, möcüzələr göstərir. Bu avadanlıq bizə döyüş meydanında çox kömək edir. Lakin biz onu alırıq, biz müqavilələr imzalayırıq, hər şey şəffafdır, hər şey qanunidir. Biz başqa ölkələrdən də silah alırıq. Nəyə görə heç kim bizim Rusiyadan nə qədər silah aldığımızdan danışmır? Yalnız Türkiyə. Çünki Türkiyə əfsuslar olsun ki, indi müxtəlif avropalı siyasətçilərin hücumuna məruz qalır. Türkiyəni qaralamaq cəhdləri var. Türkiyəni şantaj etmək, ona təzyiq göstərmək cəhdləri var. Bu, tamamilə qəbuledilməzdir. Bizim əsas silahlarımız Rusiyadan gəlir. Biz başqa ölkələrdən də silah alırıq. Yalnız Türkiyənin adı hallanır. Bu, birincisi. İkincisi, Türkiyənin bizə hərbi dəstək göstərdiyini həmişə deməyə davam edənlər nəyə görə vasitəçi, Minsk qrupunun həmsədri olan Rusiyanın Ermənistana hərbi dəstək göstərdiyini demirlər? Bizim əlimizdə sübutlar var, bu 40 gün ərzində Ermənistanın hansı məbləğdə silahla təchiz edildiyi ilə bağlı məlumatı Rusiya rəsmilərinə təqdim etmişik. Niyə heç kim bu barədə danışmır? Gəlin, bunun haqqında danışaq, gəlin, ədalətli olaq. Buna görə birincisi, bu, səhv məlumatdır. İkincisi, biz Türkiyə hərbi avadanlığını alırıq və almağa davam edəcəyik. Üçüncüsü, bu məsələ ilə bağlı heç bir ikili standart olmamalıdır. Yeri gəlmişkən, Azərbaycana Türkiyə tərəfindən hərbi dəstək göstərildiyini deyənlər, hesab edirəm, bu absurd ittihamlardan çəkinməlidirlər.

***-Açıq-aydındır ki, Türkiyənin regionda marağı var, necə ki, Rusiyanın və İranın var. Ermənistan Rusiyaya öz təhlükəsizliyinin təmin olunmasının mümkünlüyü barədə müraciət etmişdir. Siz müharibənin beynəlmiləlləşdirilməsindən qorxursunuz?***

-Ermənistan lap əvvəldən elə bunu etmək istəyirdi və biz həmişə buna qarşı idik. Mən dəfələrlə bütün ölkələrə demişəm, bu münaqişədən uzaq durun. Bu, bizim məsələmizdir, bu, ərazi bütövlüyü uğrunda bizim döyüşümüzdür. Münaqişəni beynəlmiləlləşdirmək üçün heç bir cəhd olmamalıdır. Lakin Ermənistan bunun üçün hər şeyi etdi. Ermənistanın baş nazirinin Rusiya Prezidentinə göndərdiyi məktub təkcə onların öz məğlubiyyətini artıq qəbul etdiyini, bizim döyüş meydanında onlara qalib gəldiyimizi göstərmir, eyni zamanda, onu göstərir ki, onlar münaqişəni beynəlmiləlləşdirmək istəyirlər, onlar Rusiyanı birbaşa müharibədə iştiraka sürükləmək istəyirlər, bu da tamamilə qəbuledilməzdir. Mənim bildiyimə görə, bu, Rusiya tərəfindən rədd edilmişdir və Rusiyanın xarici işlər naziri bununla bağlı bəyanat vermişdir. Ola bilsin, bunu lap dəqiqliklə ifadə etmirəm, lakin belə bir mesaj var idi ki, döyüş Azərbaycanın ərazisində aparılır. Əgər Azərbaycan, əgər istənilən ölkə Ermənistana hücum etsə, onda Rusiya öhdəliyini yerinə yetirməlidir. Lakin döyüş bizim torpağımızda gedir. Hesab edirəm ki, bu cəhdlər tamamilə faydasızdır. Rusiyanın mövqeyi xarici işlər naziri tərəfindən ifadə olunmuşdur. İranın da mövqeyi ifadə edilmişdir. Yəqin siz ölkələrin ərazi bütövlüyünün təminatına dair İranın münaqişənin həll edilməsi ilə bağlı planını eşitmisiniz. Bu yaxınlarda İranın Ali Rəhbəri Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərini boşaltmalı olduğu ilə bağlı bəyanat vermişdir. Bu, iki qonşu ölkənin reaksiyasıdır. Türkiyənin mövqeyi yaxşı bəllidir. Türkiyə həmişə beynəlxalq hüququ və BMT Təhlükəsizlik Şurasının qətnamələrini dəstəkləyir. Həmçinin Gürcüstan da dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir. Bu, bizim qonşuların mövqeyidir. Ermənistan təcrid olunub. Onlar münaqişəni beynəlmiləlləşdirmək istəyirlər, onlar dəstək qazanmaq üçün bəzi feyk xəbərlərdən və tarixdən olan bəzi feyk məlumatlardan istifadə etmək istəyirlər. Lakin Ermənistan üçün ən yaxşı hərəkət öz məğlubiyyətini, bizim qələbəmizi qəbul etmək və yerdə qalan torpaqları boşaldacaqlarına dair üzərinə öhdəlik götürməkdən ibarətdir.

***-Əgər onlar Dağlıq Qarabağın müstəqilliyini tanıyarlarsa, Sizin buna reaksiyanız necə olardı?***

-Bilirsiniz, onlar müstəqilliyi tanımaq istəsəydilər, uzun müddət bundan öncə tanıyardılar. Nəyə görə əvvəl tanımadılar? Çünki onlar aydın başa düşürdülər ki, bu, çox məntiqsiz addım nəticəsində danışıqlar tamamilə dayanacaqdır. Odur ki, onlar bunu etsələr, danışılası bir şey qalmayacaq. Sonra nə sülh təşəbbüsü, nə əsas prinsiplər, nə də gələcək tənzimləmə, heç nə masa üzərində olmayacaq. Hesab edirəm ki, onlar bunu başa düşürlər. Onlar həmişə bundan bizi qorxutmaq üçün bir alət kimi istifadə etmək istəyirdilər və deyirdilər Azərbaycan bunu etsə, biz müstəqilliyi tanıyacağıq. Mən bu müharibə günlərində dəfələrlə demişəm və indi də deyirəm, Ermənistanın baş naziri, bu gün Dağlıq Qarabağı tanı, bunu et, cəsarətini göstər, sözünün bir məna daşıdığını göstər, bu gün Dağlıq Qarabağı tanı. Yenə də siz görəcəksiniz ki, onlar bunu etməyəcəklər. Çünki onlar qorxaqdırlar, onlar yalnız dinc vətəndaşlara qarşı vuruşa bilirlər və onlar gücümüzü, birliyimizi görüb qaçırlar.

***-Siz indi regionun muxtariyyətini qəbul etməyə hazırsınız?***

-Bu, əsas prinsiplər üzərində gələcək danışıqların bir hissəsi olmalıdır. Çünki əsas prinsiplərin birinci hissəsində işğal olunmuş ərazilərdən - 5 üstəgəl 2 rayondan vaxt cədvəlinə müvafiq olaraq qoşunların çıxarılması tələb olunurdu. Sonra təhlükəsizlik, sülhməramlı əməliyyatlar, Dağlıq Qarabağın statusu kimi əsas prinsiplərin başqa elementləri də var idi. Biz həmişə bunu müzakirə etməyə çox açıq idik. Biz dəfələrlə onlara müxtəlif yolları təklif etmişdik, lakin onlar bunları rədd etmişlər. Biz onlara Azərbaycan daxilində muxtariyyət təklif etdik, biz onlara mədəni muxtariyyət təklif etdik. Biz dedik ki, dünyada, Avropada, Skandinaviya, Alan Adaları timsalında, İtaliyada Cənubi Tirol timsalında və bir çox başqa yerlərdə yaxşı nümunələr var. Lakin onlar hər şeyi rədd etdilər. Onlar yalnız müstəqillik tələb edirdilər və istəyirdilər ki, biz bu müstəqilliyi tanıyaq. Bunu etməklə onlar, əslində, bizim bunu heç vaxt etməyəcəyimizi bilərək münaqişəni dondurmaq üçün hər şeyi edirdilər. Mən bilirəm, biz birincisi münaqişənin bu qaynar fazasını bitirməliyik, danışıqlar masasına qayıtmalıyıq, Ermənistan mənim artıq dediyim öhdəlikləri üzərinə götürməlidir və sonra biz gələcəkdə nə baş verəcək onun haqqında danışa bilərik. Bu məsələ ilə bağlı indi heç nə deyə bilmərəm.

***-Çox sağ olun, cənab Prezident. Mən bizə vaxt ayırdığınız üçün Sizə minnətdarlığımı bildirirəm.***

-Suallarınıza, Azərbaycana marağınıza görə çox sağ olun.

> "Mən dəfələrlə demişəm, vasitəçilər bitərəf olmalıdırlar. Əgər onlar tərəf tutularsa, bu, onların işidir, lakin onda vasitəçilikdən çıxmalıdırlar"

# Azərbaycan Prezidentinin İspaniyanın EFE Agentliyinə müsahibəsinə Latın Amerikası mətbuatının diqqət mərkəzindədir

***Bütün dünyanın diqqəti ABŞ-da prezident seçkilərinə yönəldiyi bir vaxtda Azərbaycan Prezidenti İlham Əliyevin İspaniyanın EFE agentliyinə müsahibəsi Latın Amerikası mətbuatında diqqətlə izlənilir.***

AZƏRTAC xəbər verir ki, həmin müsahibə geniş oxucu auditoriyasına malik olan, ən çox ziyarət edilən "Holanews", "Infobae", "Clarin", "Noticiasxtra" xəbər portalları kimi onlayn-nəşrlərdə "Azərbaycan Prezidenti: "Ermənistan Azərbaycan torpaqlarını tərk etsə, biz müharibəni dərhal dayandırarıq" sərlövhəsi ilə dərc olunub. Nəşrlərdə vurğulanır ki, əgər Ermənistan işğal etdiyi Azərbaycan ərazilərini tərk edərsə, şəxsən baş nazir Nikol Paşinyan Ermənistanın məğlubiyyətini etiraf edərsə və qoşunların çıxarılmasının vaxt cədvəlini təqdim etmək barədə öhdəlik götürərsə, onda Azərbaycan Dağlıq Qarabağda müharibəni dərhal dayandırar.



## Hikmət Hacıyev: "Xankəndində yolu bağlayan məhz Ermənistandır"



Sərhədsiz reportyorlar təşkilatının 80 nəfər yerli və xarici jurnalistin Xankəndindən təhlükəsiz çıxa bilməməsi ilə bağlı açıqlaması ilə əlaqədar bildiririk ki, Laçın dəhlizi vasitəsilə Xankəndi ilə Ermənistan arasında yolu bağlayan məhz Ermənistandır. Dünən Ermənistan tərəfi açıqlama verərək yolu bağladığını bildirmişdi. SİA-nın məlumatına görə, bunu Prezidentin köməkçisi Hikmət Hacıyev deyib.

Onun sözlərinə görə, ümumiyyətlə, Xankəndindən Ermənistana iki yol var. Biri Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonu ərazisindən keçərək Ermənistanın Vardenis rayonuna doğru gedir. Digər yol isə Laçın dəhlizi vasitəsi ilədir. Bu günə olan məlumata görə hər iki yol Ermənistan silahlı qüvvələrinin nəzarətindədir.

## Sahibə Qafarova Latviyanın səfiri ilə görüşüb



Noyabrın 5-də Milli Məclisin Sədri Sahibə Qafarova Latviya Respublikasının ölkəmizdəki səfiri Daynis Qarançs ilə görüşüb. SİA-nın məlumatına görə, sədr qonağı salamlayaraq bildirib ki, Azərbaycan dost və tərəfdaş Latviya Respublikası ilə həyatın müxtəlif sahələrində əlaqələrin inkişafına böyük önəm verir. Qeyd edilib ki, hər iki ölkə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ikitərəfli münasibətlərimizin tarixində yeni bir dövr başlayıb; siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığımızın uğurlu inkişafı yoluna qədəm qoyulub.

Əlaqələrimizin inkişafında dövlət başçılarının rolundan danışan Spiker ölkə liderlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini xüsusi qeyd edib. Bildirilib ki, münasibətlərimiz qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə söykənir. İkitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində qurulan əlaqələrimiz hər iki ölkənin maraqlarına cavab verir. Azərbaycan və Latviya arasında Avropa strukturları, Şərq tərəfdaşlığı və digər beynəlxalq platformalarda da sıx əməkdaşlıq mövcuddur.

Görüşdə dövlətlərarası münasibətlər sistemində parlamentlərin rolundan danışan Sədr hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsinin əhəmiyyətini vurğulayıb, millət vəkillərinin qarşılıqlı səfərlərinin pandemiyadan sonra da davam etdirilməsinin təcrübə və informasiya mübadiləsi baxımından vacibliyini qeyd edib.

Söhbətdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışan Spiker cəbhə bölgəsindəki vəziyyət barədə danışıb, erməni tərəfinin təxribatları haqqında geniş məlumat verib. Görüşdə Covid-19 pandemiyasına qarşı mübarizədə Azərbaycanda və Latviyada həyata keçirilən tədbirlərlə bağlı da fikir mübadiləsi aparılaraq, bu sahədə beynəlxalq əməkdaşlığın rolu qeyd olunub.

Səmimi qəbul üçün minnətdarlığını ifadə edən Latviyanın Azərbaycandakı səfiri Dainis Qarançs ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini qeyd edib. Diplomat səfir kimi iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini söyləyərək, dövlətlərarası münasibətlərdə parlament diplomatiyasının rolunu yüksək qiymətləndirib.

Söhbətdə səfir qeyd edib ki, Cənubi Qafqazın bu bölgəsində baş verən proseslər onların da diqqət mərkəzindədir. O, regional münaqişələrin həllində beynəlxalq hüququn norma və prinsiplərinə əməl olunması barədə öz dövlətinin mövqeyini bir daha səsləndirib. Həmçinin parlamentlərarası əlaqələrin mövcud vəziyyəti və gələcək inkişaf perspektivləri, ikitərəfli və beynəlxalq platformalarda əməkdaşlığın müxtəlif aspektləri, tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

## Eldar İbrahimov: "Qəhrəman əsgər və zabitlərimiz zəfər tarixi yazır"



"Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz torpaqlarımızın erməni işğalından azad edilməsi uğrunda əsl qəhrəmanlıq tarixi yazır. Hazırda şanlı ordumuz döyüş əməliyyatlarını uğurla həyata keçirir, düşməni üç onillik ərzində işğal altında qalan torpaqlarımızdan qovur. Qəhrəman əsgər və zabitlərimiz Ali Baş Komandan, böyük sərkərdə İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın zəfər tarixini yazmaqdadır". SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin İntizam Komissiyasının sədri, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov deyib.

Eldar İbrahimov bildirib ki, hərb meydanında uğurlarla yanaşı Azərbaycan Prezidentinin informasiya cəbhəsində tarixi nailiyyətləri də xüsusilə diqqəti cəlb edir. Dövlətimizin başçısı mütəmadi olaraq bütün dünyada yüksək populyarlığa, geniş tamaşaçı və oxucu auditoriyasına malik kütləvi informasiya vasitələrinə ətraflı müsahibələr verərək Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bütün həqiqətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Çox haqlı olaraq Prezident İlham Əliyevin beynəlxalq səviyyədə tanınan media qurumlarına müsahibələri master-klas nümunələri kimi dəyərləndirilir. Dövlətimizin başçısının informasiya cəbhəsində böyük fəallıq göstərərək Ermənistanın təbliğatını zəiflətməsi, qarşı tərəfin "qara piar"ının, "feyk nyus"larının əsl mahiyyətini açıb göstərməsi döyüş meydanlarında qazanılan qələbələrimiz qədər önəmlidir.

"Bildiyiniz kimi, dövlətimizin başçısı İtalyanın "La Repubblica" qəzetinə müsahibə verib. Ölkə başçısı müsahibədə Azərbaycanın ölkənin ərazi bütövlüyünün təmin olunması məsələsində prinsipial mövqeyini, Dağlıq Qarabağ münaqişəsinin tarixini, düşmən təxribatına cavab verən Ordumuzun xilaskarlıq missiyası yerinə yetirdiyini, Ermənistanın işğalçılıq siyasətindən əl çəkmək istəmədiyini və digər mühüm məqamları özünəməxsus tərzdə səbr və təmkinlə diqqətə çatdırıb. Azərbaycan Prezidentinin bildirdiyi kimi, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan Minsk qrupunun həmsədrləri - üç ölkə 1993-cü ildə Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələr qəbul ediblər. Həmin qətnamələr əslində üç onillik ərzində davam edən Dağlıq Qarabağ münaqişəsinin həlli üçün qanuni bazanı şərtləndirir. Lakin Ermənistan beynəlxalq hüquqa saygısızlıq göstərərək bu qətnamələri yerinə yetirməyib və işğalçılıq siyasətini, təxribatlarını davam etdirib. Düşmən dövlətin hərbi birləşmələri bu cür təxribatlardan birini sentyabrın 27-də daha geniş miqyasda törətdi. Belə olan halda Azərbaycanın öz Ordusunun gücündən istifadə etməkdən başqa çıxış yolu qalmadı. Prezident İlham Əliyevin bildirdiyi kimi, biz cavab verməli olduq və bizim cavabımız Ermənistan üçün çox həssas idi. Azərbaycanın gördüyü cavab tədbirləri ölkəmizi, insanlarımızı qorumaq, tarixi ədaləti və beynəlxalq hüququ təmin etmək məqsədi daşıyır.

Sentyabrın 27-dən etibarən Azərbaycan Ordusu əks-hücum əməliyyatlarını uğurla həyata keçirir. Beynəlxalq reytinq təşkilatlarının dəyərləndirmələrinə görə, Azərbaycanın Silahlı Qüvvələri dünyanın 50 ən güclü ordusu sırasında yer alır. Ordumuzun təchizatı yüksək səviyyədədir. Onun arsenalında düşmənin hədəflərini dəqiqliklə müəyyənləşdirməyə və məhv etməyə qadir olan silahlar var. Bu gün Azərbaycan Ordusu qabaqcıl yeniliklərdən, mükəmməl texnologiyalardan istifadə etməklə dünya hərb tarixinə yeniliklər bəxş edir. Eyni zamanda, Ordumuzun şəxsi heyətində çox yüksək döyüş ruhu var. Bu da onunla bağlıdır ki, Silahlı Qüvvələrimiz doğma torpaqlarda vuruşur, əsgər və zabitlərimizin qanı doğma torpaqlara axır. Qısa müddət ərzində müzəffər Azərbaycan Ordusu düşmən ölkənin işğal altındakı ərazilərdə qurduğu istehkamları yarmağa müvəffəq olub. İndiyədək təxminən 200 yaşayış məntəqəmiz, o cümlədən Suqovuşan, Hadrut qəsəbələri, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri, bir sıra strateji yüksəkliklər işğaldan təmizlənib, Azərbaycanla İran arasındakı dövlət sərhədimiz tam bərpa olunub. Artıq işğaldan təmizlənən ərazilərimizdə üçrəngli bayrağımız dalğalanır. Azərbaycan ərazi bütövlüyünü tam bərpa etməyə yaxınlaşır. İnanırıq ki, tezliklə həmin tarixi günün şahidi olacağıq",- deyə, YAP İdarə Heyətinin üzvü vurğulayıb.

## Müdafiə Nazirliyi: Ermənistan feyk xəbərlər yayır

Son sutka ərzində əsasən cəbhənin Ağdərə və Xocavənd istiqamətində döyüşlər davam edib, Zəngilan istiqamətində düşmənin təxribatının qarşısı alınıb. SİA-nın məlumatına görə, bunu bu gün keçirilən brifinqdə Müdafiə Nazirliyinin (MN) mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov deyib.




A.Eyvazov deyib ki, Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tərtər istiqamətində Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu dağıdılıb: "Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun apardığı uğurlu əks-hücum əməliyyatı qarşısında aciz qalan Ermənistan feyk xəbərlər yayır. Azərbaycan Ordusu dəqiq zərbələrlə yalnız legitim hərbi hədəfləri məhv edir və bu, aydın çəkilən görüntülərdə də əksini tapıb".

## Rasim Quliyev: "İran Ermənistanla sərhədləri bağlamalıdır"



"Son vaxtlar rəsmi olaraq İran İslam Respublikasının Azərbaycanın əzəli torpağı olan Qarabağda apardığı antiterror və yaxud da ermənilərin işğalına cavab olaraq əks-hücum əməliyyatına İranın həm rəhbərlik, rəsmi şəxslər səviyyəsində, həm də İranın ali dini lideri ayətulla Əli Xamneyi səviyyəsində münasibət bildirilərkən açıq və birmənalı şəkildə ifadə olunmuşdu ki, Qarabağ Ermənistan tərəfindən işğal olunub və Azərbaycanın ərazisidir. Həmçinin onların bəyanatında bildirilib ki, BMT tərəfindən, eləcə də beynəlxalq səviyyədə tanınan Azərbaycan ərazisi Ermənistan tərəfindən işğal olunub və işğalçı Ermənistan ordusu Azərbaycan ərazisini tərk etməlidir. Bu addımın özü çox müsbət haldır". Bu fikirləri SİA-ya açıqlamasında "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri, siyasi ekspert Rasim Quliyev deyib.

Mərkəz rəhbərinin sözlərinə görə, nəhayət ki, İran İslam Respublikası qəti və açıq mövqe ortaya qoydu: "Hesab edirik ki, regionda və hər iki ölkənin qonşuluğunda olan İran dövləti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin daha tez, ədalətli və beynəlxalq hüquqa uyğun olaraq həllində maraqlı olmalıdır. Belə olan məqamda ortaya məntiqli bir təklif çıxır. İyulun 12-də Ermənistanın sərhədlərimizi pozub Tovuz hadisələrində işğala cəhd edəndə bir çox mətbuatda və müəyyən dairələrdə açıq ifadə olundu ki, İran tərəfindən Ermənistana müəyyən yüklər gedir. Bu yükləri biri hərbi, digəri isə hümanitar yük kimi qiymətləndirdi. Sonradan İran dövlətinin mətbuatda dərc olunmuş açıqlamasından bəlli oldu ki, həmin yüklər hümanitar yüklərdir. Orada olan azərbaycanlılar da bu məsələyə reaksiya verəndən sonra isə həmin məsələ daha çox gündəmə gəldi. Amma istənilən halda hansı yükün göndərilməsindən asılı olmayaraq işğalçı dövlət olan və bizim ərazilərimizdə öz qoşunlarını saxlayan regional bir ölkənin İran tərəfdən hər hansı şübhəli və ya qeyri-şübhəli yüklə hazırda dəstəklənməsi düzgün deyil. Biz hesab edirik ki, yaxın vaxtlarda İran tərəfi işğal faktı başa çatanadək Ermənistanla sərhədləri bağlamalıdır. Bu fikir həm Azərbaycan ictimaiyyətində də səslənməkdədir, həm də İranda yaşayan çoxmilyonlu Azərbaycan ictimaiyyətinin istəyini əks etdirir".

*Ceyhun Rasimoğlu*

# 40 günə azad olunan ərazilərimiz: TAM SİYAHI



**_Azərbaycan Ordusnun uğurlu əks-hücum əməliyyatına başlamasından 40 gün ötür. Bu müddət ərzində Azərbaycan Ordusu müharibə tarixlərinə düşəcək yeni bir səhifə açdı. SİA-nın məlumatına görə, düşmənə ciddi zərbələr vuran ordumuz torpaqlarımızı işğaldan azad etməkdə davam edir. Bu günə olan məlumata əsasən artıq 2618 kv. kilometr ərazi işğaldan azad olunub (ümumi 12088 kv. kilometrdən). Bu da işğal olunmuş ərazilərin 21,7%-i və ya ölkə ərazisinin 3%-ni edir._**

Eyni zamanda rəsmi məlumata görə işğal olunmuş ərazilərdə olan 900 yaşayış məntəqəsindən 209-u azad olunub. Azad olunan yaşayış belədir:

Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı nəticəsində noyabrın 4-dək 4 şəhər, 3 qəsəbə və 199 kənd işğaldan azad edilib.

İndiyədək Cəbrayıl şəhəri və rayonun 77 kəndi, Füzuli şəhəri və rayonun 30 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd qəsəbələri və 46 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 20 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 23 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində strateji yüksəkliklər azad olunub.

Trend düşmən işğalından azad olunmuş şəhər, qəsəbə və kəndlərimizin siyahısını təqdim edir:

**27 sentyabr**

Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri

Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri

Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər

**3 oktyabr**

Tərtər rayonunun Suqovuşan və Talış kəndləri

Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri

Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi

**4 oktyabr**

Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri

**5 oktyabr**

Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri

**9 oktyabr**

Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi

Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri

Füzuli rayonunun Yuxarı Güzlək, Gorəzilli kəndləri

Tərtər rayonunun Çaylı kəndi

**14 oktyabr**

Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri

Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri

**15 oktyabr**

Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri

Füzuli rayonunun Arış kəndi

Cəbrayıl rayonunun Doşulu kəndi

**16 oktyabr**

Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri

**17 oktyabr**

Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri

18 oktyabr

Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı

**19 oktyabr**

Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri

**20 oktyabr**

Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri

Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri

Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri

Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri

**21 oktyabr**

Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri

Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri

Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri

**22 oktyabr**

Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəllekli kəndləri və Ağbənd qəsəbəsi

Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri

Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri

**23 oktyabr**

Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri

Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri

Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri

Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri

**25-26 oktyabr**

Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri

Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri

Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri.

**28 oktyabr**

Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri

Füzuli rayonunun Mandılı kəndi

Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri

Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri.

**30 oktyabr**

Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri

Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri

Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri.

**2 noyabr**

Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri

Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri

Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri.

**4 noyabr**

Cəbrayıl rayonunun Mirək, Kavdar kəndləri

Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri

Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri.

## Düşmənin Tonaşendəki hərbi infrastrukturu dağıdılıb



Cəbhənin Tərtər istiqamətində Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin hərbi infrastrukturuna ciddi ziyan vurulub. Müdafiə Nazirliyindən SİA-ya verilən məlumata görə, düşmənə endirilən artilleriya zərbələri ilə Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu dağıdılıb.

## TƏBİB-dən XƏBƏRDARLIQ: Hər kəs maskadan istifadə etsin



Bir-biri ilə təmasda olan hər iki insanın tibbi maskadan istifadə etməsi vacibdir. Hər iki tərəf maskadan istifadə edərsə, yoluxma faizi 1-dən aşağı olar. SİA xəbər verir ki, bunu TƏBİB-in Elmi Komitəsinin sədri, Elmi Tədqiqat Profilaktika İnstitutunun direktor müavini, professor Akif Qurbanov deyib. Onun sözlərinə görə, tibbi maskalar həm onu istifadə edən insanı, həm də onun təmasda olduğu şəxsi virusdan qoruyur. A.Qurbanov əlavə edib ki, düzgün qorunma tədbirləri insanı virusdan qoruya bilər. Amma qorunma tədbirlərinə düzgün əməl edilməzsə, insanın virusa yoluxmayacağına heç kim təminat verə bilməz: "Bu qaydaları hamı bilməlidir və hamı maska gəzdirmək xatirinə maska taxmamalıdır. Maska bizi virusdan qoruyan maska olmalıdır. Digər qayda odur ki, əllər təmiz, diqqətlə yuyulmalıdır. Əllər yuyulduğu zaman yalnız ovucun içi, arxası deyil, onun bütün səthi diqqətlə yuyulmalıdır. Əllər bu cür yuyulduqda əl dərisində olan virus bizi tərk edə bilər. Bəzən insanlarda belə səhv təsəvvür yaranır ki, qorunma tədbirləri bizi heç virusdan qorumur. Amma bu, o halda qorumur ki, qaydalara düzgün riayət edilmir. Maskadan düzgün istifadə etmək, əlləri düzgün yumaq, maksimum şəkildə sıx təmaslardan çəkinmək lazımdır. Bu məsələlərə düzgün əməl olunsa, nəinki COVİD, sizi əmin edirəm ki, biz heç bir tənəffüs sistemi xəstəlikləri, o cümlədən qrip və qripəbənzər xəstəliklərlə xəstələnməyəcəyik".

A.Qurbanov qeyd edib ki, nazik və ya qalın olmasından asılı olmayaraq, bütün maskalar insanı az və ya çox dərəcədə virusdan qoruyur. Maskanın parçasının sıxlığı nə qədər çoxdursa, onun virusdan qorunmaq imkanı o qədər çoxdur: "Amma cərrahi maskalar insanı virusdan qorumaq üçün yetərlidir. Yetər ki, bu maskanı hamı istifadə etsin və hər kəs də onu düzgün taxsın".





## Ermənistanda müdafiə naziri ilə general əlbəyaxa oldu!

Ermənistan ordusunun Dağlıq Qarabağ münaqişəsində vəziyyəti ağırlaşdıqca ölkədə siyasi çəkişmələr kəskinləşir. SİA bildirir ki, hazırkı hökumətlə "Qarabağ klanı" arasında münasibətlər daha da pisləşib.

Qeyd olunur ki, bu günlərdə Laçın rayonunda müdafiə naziri David Tonoyanla general Vitali Balasanyan arasında ciddi münaqişə yaşanıb. Nazirin qərargahına gələn V.Balasanyan onu Qarabağda ağır məğlubiyyətə görə ittiham edib. Bundan başqa, general nazirdən istefa verməyi tələb edib. Həmçinin, o, D.Tonoyandan Nikol Paşinyana müraciət edərək onun özünü müdafiə naziri təyin etməsi barədə fərman imzalamağı tələb edib.

Bəzi məlumatlara görə, tərəflər arasında əlbəyaxa dava düşüb. D.Tonoyan generalı həbs etdirməklə hədələyib. Qeyd olunur ki, həmin gün V.Balasanyan Ermənistanın sabiq prezidenti Robert Koçaryanla da görüşüb. Onlar arasında "Qarabağın xilası" məqsədilə Ermənistanın indiki hökumətini devirmək üçün səyləri birləşdirmək barədə razılıq əldə olunduğu deyilir.

## Dilqəm Əsgərov və Şahbaz Quliyev Şuşadan Ermənistanın köçürülüb



"Mən inanıram ki, tezliklə işğal olunmuş torpaqlarımız geri qaytarılacaq və atamla dostu erməni girovluğundan azad ediləcək". Xezerxeber.az-ın məlumatına görə, bu sözləri ermənilər tərəfindən bir neçə ildir ki, öz dədə-baba torpağında girov götürülən Dilqəm Əsgərovun oğlu Kürdoğlu Əsgərov deyir.

Kürdoğlu Əsgərovun sözlərinə görə, ötən gün Beynəlxalq Qırmızı Xaç Komitəsinin əməkdaşları onlara məlumat verib ki, ermənilər Dilqəm Əsgərov və Şahbaz Quliyevi Şuşa həbsxanasından köçürüb.

Kürdoğlu Əsgərov bildirir ki, axırıncı dəfə Beynəlxalq Qırmızı Xaç Komitəsi girovlara sentyabr ayında baş çəkib. Həmin vaxt Dilqəm Əsgərov ailəsinə məktub da göndərib. Məktubda o, hər şeyin normal olduğunu bildirib.

Dilqəm Əsgərovla birlikdə girov saxlanılan Şahbaz Quliyevin qardaşı İlham Quliyev də deyir ki, qardaşının Şuşa həbsxanasından Ermənistana köçürülməsi ilə bağlı ailəsi məlumatlandırılıb.

Məsələ ilə bağlı Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakı ofisindən "Xəzər Xəbər"ə bildirildi ki, Dilqəm Əsgərov və Şahbaz Quliyevin Şuşa həbsxanasından Ermənistana aparılması ilə bağlı hər ik tərəfin yaxınları məlumatlandırılıb.

Xatırladaq ki, hər iki şəxs 2014-cü il iyulun 11-də Kəlbəcərdə ata-baba yurdlarını və yaxınlarının məzarlarını ziyarət edərkən Ermənistan silahlı qüvvələri tərəfinən girov götürülüblər.

Dağlıq Qarabağdakı separatçı rejimin qurduğu "məhkəmə"də Dilqəm Əsgərov ömürlük, Şahbaz Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilib.

## Ermənistan rəhbərliyi din xadimlərini siyasi oyunlara alət edir



Ermənistan rəhbərliyi din xadimlərini öz siyasi oyunlarında alət kimi açıq-aşkar istifadə edir. Xezerxeber.az-ın məlumatına görə, Ermənistan rəhbərliyi hərbi forma geyindirilən keşişləri döyüşməkdən imtina edən erməniləri geri çağırmaq üçün cəbhəyə göndərir.

Döyüş meydanında uğursuzluqlardan xilas ola bilməyən Ermənistan rəhbərliyi din xadimlərini öz siyasətinə qurban verir. Səmavi dinlərin heç birində işğalçılıq qəbul edilmir və daima sülh təbliğ olunur. Ermənilər isə özgə torpaqlarında işğalçılıq etməklə bərabər din xadimlərinini də döyüşə cəlb edir.

Hərbi geyimdə ön xətdə olan keşişlər arasında əsir düşənlər də var. Onlar hərbi forma geyindiyindən adi döyüşçüdən seçilmir və cəbhədə hərbi hədəf kimi görünür.

İlahiyyatçı alim Şahin Həsənovun sözlərinə görə, Ermənsitan rəhbərliyinin əsas istəyi odur ki, "din xadimləri atəşə tutulur" deyə öz yalanlarını yaysın.

Son günlər yayılan görüntülərin əksəriyyətində hərbi formada olan erməni din xadimlərini görmək mümkündür. Cəbhədə uğursuzluqları artdıqca Ermənistan rəhbərliyi döyüş bölgəsinə keşişləri cəlb edir, uşaq bağçaları, məktəblər kilsələri isə özlərinə qəraragah kimi seçirlər. Azərbayacan Ordusu isə heç bir halda mülki əhaliyə atəş açmır. Yalnız Ermənistanın hərbi hədəfləri məhv edilir.

## Düşmənin döyüş meydanında atıb qaçdığı yeni hərbi texnikalar



Ermənistan silahlı qüvvələrinin döyüş meydanında atıb qaçdığı və qənimət olaraq ələ keçirdiyimiz hərbi texnikaların görüntüləri yayılıb. SİA Müdafiə Nazirliyinə istinadən həmin görüntüləri təqdim edir.

## Rusiya mətbuatı: **Azərbaycanın 92 mülki vətəndaşı Ermənistan təxribatlarının qurbanı olub**



27 sentyabr - 5 noyabr tarixləri arasında Ermənistanın hərbi təxribatları nəticəsində Azərbaycanın 92 dinc sakini həyatını itirib və 404 nəfər yaralanıb. SİA xəbər verir ki, bu barədə Rusiyaya məxsus vestikavkaza.ru saytı Azərbaycan Baş Prokurorluğunun mətbuat xidmətinin informasiyasına istinadən məlumat yayıb.

Məlumatda qeyd olunur ki, Ermənistan hərbçiləri tərəfindən aparılan intensiv artilleriya və raket atəşləri nəticəsində Azərbaycanın 2.971 fərdi evi, yüz çoxmərtəbəli bina və 502 mülki obyekt qəzalı vəziyyətə düşüb. Rusiyaya məxsus mətbuat səhifəsində xatırladılır ki, Ermənistan tərəfi sentyabrın 27-də Azərbaycana qarşı hərbi əməliyyatları bərpa edib, Azərbaycan ordusu əks-hücum əməliyyatına başlayıb və indiyə qədər Cəbrayıl və Füzuli şəhərləri, Zəngilan şəhəri və Zəngilan bölgəsinin çox hissəsi, Qubadlı şəhəri, bir çox kəndlər, yaşayış məntəqələri tamamilə işğaldan azad edilib. Qeyd olunur ki, buna cavab olaraq, Ermənistan Silahlı Qüvvələri Azərbaycanın mülki əhalisinə qarşı terror hücumları həyata keçirir, sərhəd yaşayış məntəqələrini top atəşi ilə, cəbhədən uzaq şəhərləri isə orta mənzilli raketlərlə atəşə tutur.

*İnam Hacıyev*

## Putin "Qurani-Kərim"dən ayələr oxuyub



Rusiya Prezidenti Vladimir Putin "Qurani-Kərim"dən ayələr oxuyub. SİA xəbər verir ki, Putin Rusiyanın Milli Birlik Günü münasibətilə ölkəsindəki dini nümayəndələrlə video formatdakı görüşdə sevgi, yaxşılıq və bu xislətlərin mükafatlarına dair "Şura" surəsinin 23-cü, "Nəhl" surəsinin 128-ci ayələrini rusca oxuyub.

Dövlət başçısı daha sonra çıxışında Rusiya üçün etnik və dinlərarası sülhün çox əhəmiyyətli olduğunu, bu sahədə mümkün qədər həssas və islahatçı davranmağa çalışdıqlarını bildirib. "Söz azadlığı adı altında inanclıların duyğularına həqarət edən, bunu zorakılıq və dözülməzlik səbəbi olaraq istifadə edən müxtəlif təxribatçıların hərəkətlərinin nəyə yol açdığını görürük", - Putin qeyd edib. Qeyd edək ki, Rusiyada 20 milyona yaxın müsəlman yaşayır.

*Aysel Məmmədova*

## Sergey Lavrov almaniyalı həmkarı Qarabağı müzakirə edib



Rusiya və Almaniya xarici işlər nazirləri Dağlıq Qarabağda vəziyyəti müzakirə ediblər. AZƏRTAC Rusiya XİN-inin mətbuat xidmətinə istinadla xəbər verir ki, bu ölkənin xarici işlər naziri Sergey Lavrov almaniyalı həmkarı Hayko Maas ilə telefon danışığı zamanı Dağlıq Qarabağda vəziyyət və Donbasda münaqişənin nizama salınması ilə bağlı məsələlər ətrafında müzakirə aparıblar.

## Ukraynalı ekspert: Erməni qüvvələrinin döyüş nizamı itib



Ermənistan tərəfindən döyüş bölgəsindən yayılan bütün video görüntülərdə biz eyni şeyi müşahidə edirik - Ermənistandan böyük sayda könüllülərin gəlməsi və erməni qüvvələrinin döyüş nizamı müşahidə olunmur. Trend bildirir ki, bunu ukraynalı hərbi ekspert Yuri Podolyaka deyib. Ekspert bildirib ki, döyüşlərdə yalnız nizamsız silahlı qruplaşmalar və ehtiyat hərbçilər var, lakin Ermənistandan gələn böyük sayda könüllülər yoxdur: "Bütün dünyadan minlərlə könüllülərin gəlməsi barədə məlumatların yayılması isə sadəcə təbliğatdır. Ermənistanın özündən könüllülər Dağlıq Qarabağa gəlməyə çox da tələsmirlər.

Mən erməni vətənpərvərlərin sosial şəbəkələrdə aktivliyini müşahidə edirəm, lakin video görüntülərdən məlum olur ki, döyüşlərdə bu vətənpərvərlərin sayı çox cüzidir".

## Zoqrab Mnatsakanyan: "KTMT ilə bağlı əlavə heç nə deyə bilmərəm"



Ermənistanın xarici işlər naziri Zoqrab Mnatsakanyan parlamentdə jurnalsitlərlə söhbətində KTMT ətrafında verilən suallardan yayınmağa çalışıb. SİA xəbər verir ki, bu barədə Panorama.am saytı yazır. Belə ki, "Bu planda lazım olan bütün işlər aparılır, əlavə heç nə deyə bilmərəm", deyən erməni XİN-nin rəhbəri bugünlərdə hökumət kabineti tərəfindən Rusiya Federasiyasının prezidentinə müraciət edildiyini də xatırladıb və bildirib ki, onlar Rusiyanın Ermənistana hərbi yardımı, eləcə də təhlükəsizliyinin təmin olunması ətrafında təcili əməkdaşlıq məsləhətləşmələrinə başlanılmasının vacibliyini qeyd ediblər.

"Bizim razılaşma münasibətlərimizə gəlincə deyə bilərəm ki, nə lazımdırsa, onu da edirik", deyən Mnatsakanyan əlavə edib ki, 1997-ci ildəki baza razılaşmasında və başqa sənədlərdə tələb olunan məsələlər barədə danışılıb.

Ermənistanın KTMT-yə müraciətinin bilavasitə Azərbaycanın iqtisadi partnyorları sayılan Belarus və Qazaxıstan tərəfindən manelərin yaradılması mümkünlüyü ilə bağlı verilən sualı da cavablandıran erməni diplomatı bildirib ki, bu sual dərin analiz və ayrıca olaraq uzun müddətli müzakirələrin predmetidir.

Xatırladaq ki, Ermənistan əlində olan bütün imkanlardan istifadə edərək, KTMT-nin münaqişəyə cəlb olunmasına çalışırdı. Lakin bu cəhdlərin boşa çıxmasını sübut edən daha bir amil Rusiya prezidenti Vladimir Putinin, xarici işlər naziri Sergey Lavrovun və prezidentin köməkçisi Dmitri Peskovun bəyanatlarıdır. Belə ki, Rusiya tərəfi Azərbaycanın öz ərazisində hərbi əməliyyatlar aparıldığını bir neçə dəfə bəyan edib.

*Rövşən*

# Azərbaycan ədaləti bərpa edir!

## Yaxud, niyə məhz bu gün?

***30 il idi ki, Azərbaycan torpaqları təcavüzkar Ermənistanın işğalçılıq siyasəti nəticəsində düşmən tapdağı altında inləyirdi. Yüz minlərlə insanlarımız Dağlıq Qarabağ və ətraf rayonlardakı doğma ocaqlarından, yurd-yuvalarından məhrum olaraq qaçqınlıq, məcburi-köçkünlük statuslu ağır yükü, məşəqqəti öz üzərində daşıyırdı və 30 il idi ki, Azərbaycan dövləti çoxsaylı beynəlxalq nüfuzlu təşkilatlarda ədalətin bərpası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün çağırışlar edir, o cümlədən, işğalçıların rəhbərlikləri və ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçilikləri ilə danışıqlar masasına oturur, müxtəlif təkliflərlə çıxışlar edirdi. Azərbaycan dövləti ötən 30 il ərzində münaqişənin məhz müharibəsiz, qansız-qadasız həll olunması üçün kifayət qədər böyük səbr, təmkin nümayiş etdirdi.***

Lakin bütün bu cəhdlərə baxmayaraq, işğalçı ölkə öz iddialarından əl çəkmirdi, baxmayaraq ki, Ermənistanın əvvəlki hakimiyyəti ilə aparılan sülh danışıqlarında müəyyən ümidverici məqamlara da rast gəlinirdi.



***Bəhruz QULİYEV,***
***"SƏS" qəzetinin baş redaktoru,***
***Fəlsəfə üzrə fəlsəfə doktoru***

Təəssüf ki, sonda həmin ölkənin rəhbərlikləri öz sözlərinin üzərində dayanmamaqla yanaşı, həm də cəbhə xəttində atəşkəs rejiminin pozulmasına göz yumur, mülki insanlarımız - qadınlarımız, uşaqlarımız, yaşlılarımız erməni tərəfinin silahlı hücumlarına məruz qalırdı, hədəfə çevrilirdilər. Təkcə atəşkəs dövründə həyatlarını itirmiş Azərbaycan vətəndaşlarının sayı yüzlərlədir və bu gün biz həmin terrorun daha aqressiv halını Ermənistanın mövcud baş naziri Nikol Paşinyanın simasında görməkdəyik.

### Ali Baş Komandanımız İlham Əliyev də vurğuladığı kimi bu cür münasibət Azərbaycan xalqına qarşı düşünülmüş təhqir idi...

Sual oluna bilər ki, niyə məhz bu gün? Niyə sentyabrın 27-dən başlayaraq Azərbaycan tərəfi düşmənlərə layiqli cavab verməyə başladı? Bunun isə digər bir sıra obyektiv səbəbləri var. Bildiyimiz kimi, Azərbaycan Prezidenti, cənab Ali Baş Komandan İlham Əliyev Ermənistan silahlı qüvvələrinin və qondarma "DQR"in quldur hərbi birləşmələrinin əzəli torpaqlarımızdan dərhal, qeyd-şərtsiz çıxarılmaları üçün qarşı tərəfə son şansı vermişdi. O, BMT-nin Təhlükəsizlik Şurasının çıxardığı dörd qətnaməsini, habelə Avropa İttifaqının və Avropa Şurasının qərarlarını əsas tutaraq, münaqişənin daha gərgin mərhələyə keçməsinin qarşısını almağa çalışdı. Ancaq göründüyü kimi, qarşı tərəf bu şansdan da istifadə etmədi, yaxud etmək istəmədiyini dinc şəhərlərimizi, mülki obyektlərimizi, vətəndaşlarımızı artilleriya və raket zərbələrinə məruz qoymaqla nümayiş etdirdi. Hüquqi tərəfi bəllidir və bu barədə qətnamələr, qərarlar barədə qeyd etdik. Mənəvi tərəfi isə budur ki, qondarma və separatçı "DQR"in saxta "prezidenti" ni də seçib "andiçmə" mərasimini də qədim Azərbaycan şəhəri Şuşada keçirdi, üstəlik, Ermənistanın baş naziri Nikol Paşinyan da həmin "mərasimə" qatıldı, məclislər təşkil edildi və s. Əlbəttə ki, həmin faktı özündə milli-mənəvi ruh daşıyan heç bir azərbaycanlı qəbul edə bilməzdi və bununla yanaşı, Ali Baş Komandanımız İlham Əliyev cənablarının da vurğuladığı kimi bu cür münasibət Azərbaycan xalqına qarşı düşünülmüş təhqir münasibəti idi...




Belə olan halda isə təbii ki, uzun illər formalaşaraq Cənubi Qafqazın ən güclü silahlı qüvvələrinə çevrilmiş, dünyanın 50 ən güclü orduları sırasında yer alan Azərbaycan Ordusu cənab Ali Baş Komandanın əmri əsasında həm hüquqi, həm də mənəvi baxımdan cavab tədbirləri görmək qərarını verməliydi.

### Prezident İlham Əliyev cənabları Ulu Öndər Heydər Əliyevin siyasi strategiyasını, inkişaf konsepsiyasını uğurla davam etdirərək, əvvəllər həyata keçirilməsi mümkün görünməyən işləri son 17 ildə reallaşdırmağa müvəffəq oldu

Təbii ki, Azərbaycan dövləti bu gücü-qüdrəti reallaşdırmaq üçün çox uzun yol qət etdi, iqtisadi imkanlarını gerçəkləşdirdi, neft və qeyri-neft sektorunda nəhəng layihələrini reallaşdırdı, təşəbbüskar və ideyaverici rolunda çıxışlar edərək dünyanın ən böyük şirkət və korporasiyaları ilə müqavilələr imzaladı. İqtisadi gücünü formalaşdıran və artıran Azərbaycan dövlətinin rəhbəri, Prezident İlham Əliyev cənabları Ulu Öndər Heydər Əliyevin siyasi strategiyasını, inkişaf konsepsiyasını uğurla davam etdirərək, əvvəllər həyata keçirilməsi mümkün görünməyən işləri son 17 ildə reallaşdırmağa müvəffəq oldu. Əldə edilən kapital gəlirləri dövlətin qüdrətlənməsinə, insan resurslarına, vətəndaşlarımızın rifahına xərcləndi və onun nəticəsi olaraq bu gün hər bir Azərbaycan vətəndaşı öz vətəndaşlıq borcundan çıxış edərək, bütün mənalarda öz dövlətinin təhlükəsizliyini, ərazi bütövlüyünün təmin olunmasını mənəviyyat, vicdan və şərəf timsalında əks etdirir. Əbəs deyil ki, cənab Prezident İlham Əliyev iqtisadiyyatdan əldə edilən kapitalı insan kapitalına çevriləcəyini vurğulayırdı və bu gün bir sıra məqamlarda biz bu uğurlu siyasətin məntiqi nəticələrini görməkdəyik.

Digər tərəfdən, həmin uğurlar çərçivəsində mövcud olan xalq-hakimiyyət birliyi amili ölkəmizin dövlətçilik maraqlarının möhkəm təməllərə söykənməsinə kifayət qədər geniş imkanlar verdi və bu gün həmin birlik özünü sarsılmazlığı ilə prinsipiallığı ilə təsdiq edir. Əlbəttə, xarizmatik, praqmatik və qətiyyətli Lider faktoru da bu kimi məsələlərdə öz sözünü dedi və deməkdədir. Əbəs deyil ki, bu gün İlham Əliyev dedikdə, liderliklə yanaşı, həm də yenilməz, müzəffər sərkərdə obrazı da özünü bütün tərəflərdən isbat etməkdədir. Deyərdim ki, bu gün Azərbaycanda olan tükənməz ruh birliyi analoqu olmayan bir hadisədir və tarixə yazılan həqiqətdir.



### İqtisadi uğurlardan əldə olunan gəlirin əsas hissəsi sosial məsələlərlə yanaşı, həm də ordu quruculuğu prosesinə cəlb olunurdu

Bu gün Azərbaycanın şanlı Ordusunun Qarabağ cəbhəsində apardığı əks-hücum əməliyyatları və torpaqlarımızın düşmən işğalından azad olunması yönündə həyata keçirilən tədbirlər qeyd edilən şərtlərin hesabına qələbə və zəfərlərlə müşayiət olunmaqdadır. Belə ki, iqtisadi uğurlardan əldə olunan gəlirin əsas hissəsi sosial məsələlərlə yanaşı, həm də ordu quruculuğu prosesinə cəlb olunurdu. Azərbaycan Ordusu ən müasir hərbi-texniki texnologiyaları vasitəsi ilə şəhər və kəndlərimizi, qəsəbələrimizi işğaldan azad edir. Artıq məlumdur ki, dünyanın diqqətində olan Qarabağ cəbhəsində ən unikal hərbi əməliyyatlar keçirən müasir Azərbaycan Silahlı Qüvvələri bir çox hərbi strateqləri sözün həqiqi mənasında heyrətləndirir. Azərbaycan Ordusu dünyanın müasir hərb elminə yenilikləri ilə imza atır və tarix yazır. O cümlədən, dünya artıq Azərbaycanı yeni texnologiyaları, ən müasir siyasi-iqtisadi və hərbi modelləri ilə qəbul edir, nümunələr götürür. Amma onu da unutmamalıyıq ki, hərbi uğurlarımızın təməlində dayanan əsas faktor Azərbaycan əsgəri, Azərbaycan zabiti və qəlbləri onlarla bir döyünən xalqın tükənməz dəstəyidir. Bu gün Azərbaycan əsgəri düşmənlə qarşılaşmağa böyük sevinc hissi ilə gedir və gözü də arxada qalmır. Çünki bilir ki, arxada onun ailəsinə sahib çıxan Azərbaycan dövləti, qeyrətli Azərbaycan xalqı dayanır. Əgər biz cəbhədə Azərbaycan əsgər və zabitlərinin şücaətlərinə, qəhrəmanlıq salnamələrinə, eyni zamanda şəhidlərimizin valideyinlərinin "Vətən sağ olsun!" kəlmələrini nə qədər qürurla səsləndirdiklərinə nəzər salsaq, zəfərin, qələbənin nə qədər yaxında olduğunu bir daha hiss edərik.

### Xaotik vəziyyətdə başını itirmiş bir ölkənin güclü və dünya birliyi içində özünəməxsus yeri və rolu olan Azərbaycanla səfərbərlik faktlarını müqayisə edək

Bəs Ermənistanda, düşmən ordusunda vəziyyət necədir? Əslində bu sualın özümüzə verərkən, qarşı tərəfin vəziyyətinin nə yerdə olduğunu baş verən hadisələr fonunda cavabını tapmış oluruq. Ən adi bir misal gətirməklə deyə bilərik ki, bu gün ordumuz işğalçı düşmənin ərazilərimizdən çıxarılmasına nail olursa, deməli ki, düşmən qaçır, düşmən fərarilik edir. Hazırda Ermənistanda yeridilən yarıtmaz, uğursuz, mənfur və məğlubiyyətə doğru sürətlə yuvarlanan siyasət xalqın mövcud hakimiyyətə qarşı narazılığını artırmaqdadır. Xaotik vəziyyətdə başını itirmiş bir ölkənin güclü və dünya birliyi içində özünəməxsus yeri və rolu olan Azərbaycanla səfərbərlik faktlarını müqayisə edək. Misal üçün, Azərbaycan qismən səfərbərlik elan edib və gənclərdən tutmuş orta yaşı insanlarımıza qədər hər kəs cəbhəyə, döyüşməyə can atırlar. Çünki bilirlər ki, onlar öz torpaqlarının işğaldan azad olunmasında iştirak edəcəklər. Bəs erməni tərəfində nə baş verir? Polis və hərbi polis gücləri küçələrdə insanları zorla avtobuslara yığmaqla cəbhəyə göndərir. Yaxud, insanlar hərbi komissarlıqlara müxtəlif vasitələrlə rüşvətlər təklif edib, övladlarının Qarabağa yollanmasının qarşısını almağa çalışırlar. Eləcə də məlum olub ki, cəbhəyə getməyən kişilərin yeni doğulmuş övladlarına doğum evləri heç bir sənəd vermirlər, üstəlik həmin uşaqlara doğum haqqında şəhadətnamələrin də verilməsi yasaqlanıb. Bax, budur düşmən ordusu ilə müzəffər Azərbaycan ordusu arasındakı real fərq.

### Dünya birliyi nəyə görə cənab İlham Əliyevə minnətdar olmalıdır?

Hətta Nikol Paşinyan hökumətinin yalançı pafos üzərində səsləndirdikləri saxta vətənpərvərlik çağırışları da artıq heç bir effekt vermir və hətta bu pafoslu çağırışların təsiri altına düşərək cəbhəyə gedənlər indi fərarilik edir, qaçıb-gizlənirlər. Və bu həmin Nikol Paşinyandır ki, hakimiyyətə yiyələnəndə də pafoslu, odlu-alovlu çıxışlar edib, xalqını aldadırdı, indi isə erməni xalqının başını bu cür çıxılmaz, ağrılı-acılı cəngəllərə doğru itələyir.

Beləliklə, Azərbaycan dövləti bu gün ədaləti bərpa edir - BMT-nin Avropa İttifaqının və s. beynəlxalq qurumların 30 ildir ki, kağız üzərində qalmış, toz basmış, həyata keçirilməmiş qətnamə və qərarlarının icrasını reallaşdırır. Bu təşkilatlar Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərgilədiyi iradəsinə, qətiyyətinə görə Ona minnətdar olmalıdırlar. Çünki Azərbaycan dünyada dondurulmuş münaqişələrin hərb yolu ilə də həlli yolunun olmasının nümunəsini yaradır. Həm də minnətdar olmalıdırlar ona görə ki, faşizmi, terrorçuluğu dövlət siyasətinə çevirmiş Ermənistanı yerinə oturdur, bu siyasətin regiona və dünyaya təsir göstərmək şanslarını heçə endirir. Çünki O, müasir dünyanın tarixini və gələcək üçün Sərkərdəlik, Liderlik tarixi yazır, özü də onu qızıl hərflərlə həkk edir!

# Vüqar Rəhimzadə: “Paşinyan tarixdə “uşaq qatili” kimi qalacaq və daim lənətlənəcək”

***Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu ermənilərin illərdir yaratdıqları “məğlubedilməz ordu” mifini dağıdır. Bu, təkcə hərbi üstünlük və qələbə deyil, həm də ideoloji müstəvidə Ermənistanı məğlub etmək deməkdir.***

İtaliyanın “La Repubblica” qəzetinə müsahibəsində Azərbaycanın mükəmməl texnologiyasının və çox yüksək döyüş ruhunun olduğunu önə çəkən möhtərəm Prezidentimiz İlham Əliyev bildirdi ki, ölkəmiz Ermənistana kimin kim olduğunu sübut etdi. Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, Ermənistanın ATƏT-in Minsk qrupunun həmsədrlərinin-Rusiya, Fransa və ABŞ-ın vasitəçiliyi ilə əldə edilən humanitar atəşkəs razılaşmasını pozması, Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Cenevrə görüşlərindən sonra yenə də təxribatlarını davam etdirməsi işğalçı dövlətin prosesi qarşıdurmanın davamına doğru yönəltməkdə maraqlı olduğunu nümayiş etdirir: “Münaqişənin həlli ilə bağlı Azərbaycanın prinsipial mövqeyi belədir ki, hərbi-siyasi nizamlama yeganə mümkün yoldur. İşğal altında olan bütün ərazilər azad olunmalı, Ermənistan ordusunu zəbt etdiyi ərazilərdən geri çəkməlidir. Yalnız bundan sonra siyasi nizamlama prosesinə keçmək olar. Dövlətimizin başçısı İlham Əliyev aydın şəkildə münaqişənin sülh yolu ilə həlli mexanizmini diqqətə çatdırır və xalqların sülh şəraitində yaşamasını təmin edəcək model təklif edir. Amma Ermənistanın baş naziri Nikol Paşinyanın son müsahibələrinə diqqət yetirdikdə bu siyasətdən və diplomatiyadan bixəbər avantürüstün feyk xəbərlərin yayılmasında, beynəlxalq ictimai rəyi çaşdırmaqda nə qədər maraqlı olduğunu görürük. Paşinyan azərbaycanlıların və ermənilərin



sülh şəraitində yaşamasına şübhə edərək Dağlıq Qarabağda “soyqırımın” olmasından qorxduğunu bildirməklə hələ də yalanlarının ayaq tutub yeriyəcəyini düşünür. Unudur ki, soyqırımına məruz qalan hər zaman Azərbaycan olub. Ermənistan və ona havadarlıq edən dövlətlər unutmamalıdırlar ki, artıq Azərbaycan 1992-ci illərin Azərbaycanı deyil. O zaman Azərbaycan haqqında məlumatsızlıq erməni yalanlarının qarşısında “yaşıl işıq” yandırmışdı. Amma bu gün o “işıqlar” Azərbaycan həqiqətlərinin faktlar əsasında dünya ictimaiyyətinə çatdırılması əsasında sönüb. Bu, sınaqlardan çıxmış bir həqiqətdir ki, tarixi inkar etmək mümkünsüzdür. Ermənilər tarixin müxtəlif dövrlərində havadarlarının dəstəyi ilə azərbaycanlılara və türklərə qarşı soyqırımı və deportasiya siyasəti həyata keçiriblər. Bir məqamı da xüsusi qeyd edək ki, bu gün Ermənistandan fərqli olaraq Azərbaycan multietnik, çoxkonfessiyalı ölkədir. Burada müxtəlif xalqların, millətlərin nümayəndələri sülh, əmin-amanlıq şəraitində yaşayırlar. Ermənistan əhalisinin 99 faizi etnik ermənilərdir. Ermənistan monorespublikadır. Ölkə Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi, Dağlıq Qarabağda yaşayan ermənilər əmin ola bilərlər ki, xunta rejiminin rəhbərliyi altında olduğundan fərqli olaraq burada daha yaxşı həyat sürəcəklər”.

Baş redaktor qeyd edib ki, atdığı hər addımda özünün işğalçılıq, faşist siyasətini təsdiqləyən Ermənistan hakimiyyəti nə yolla olur-olsun danışıqlar prosesini uzatmağa və müəyyən dəstək əldə etmək üçün hər bir feyk üsuldan istifadə etməyə çalışır: “Dağlıq Qarabağda soyqırımı olacağından qorxduğunu iddia edən Ermənistanın baş naziri görəsən mülki şəxslərin atəşə tutulması əmrini verib, iki dəfə Gəncədə, sonra Bərdədə soyqırımı aktını törədəndə niyə qorxmurdu? Halbuki, bu vəhşiliklər dünyanın gözü qarşısında baş verib. Son bir ayda Ermənistan silahlı qüvvələrinin mülki şəxsləri atəşə tutmaları nəticəsində Azərbaycanın dinc əhalisi arasında ölən və ağır yaralananların statistikası dünyanın aparıcı dövlətlərinə və nüfuzlu beynəlxalq təşkilatlara yaxşı məlumdur. 92 nəfər ölüb, 400-dən artıq insan ağır yaralanıb. Onların 11-i uşaqdır. Paşinyan tarixdə Gəncə və Bərdə hadisələrinə görə “uşaq qatili” kimi qalacaq və daim lənətlənəcək”.

Baş redaktor vurğulayıb ki, Ermənistanın döyüş meydanında məğlubiyyəti ilə barışmayıb törətdiyi təxribatlar xalqımızın iradəsini sındıra bilməz: “Azərbaycan Ordusu qətiyyətlə irəliləyir. Hər gün təqdim olunan işğaldan azad olunmuş ərazilərimizin siyahısı hər kəsi daha da qürurlandırır, qələbə əzmini artırır. Azərbaycan həm Ermənistana, həm də ona havadarlıq edən dövlətlərə və nüfuzlu beynəlxalq təşkilatlara sübut edir ki, haqq, ədalət mübarizəsi aparır, öz ərazisində döyüşür, təcavüzkar deyil, heç bir dövlətin torpağında gözü yoxdur. Paşinyanın dünya ölkələrinin rəhbərlərinə saysız-hesabsız zənglərində Dağlıq Qarabağın müstəqilliyinin tanınması ilə bağlı yalvarışlarına, cənab Prezidentimizin dediyi kimi, onların dabanlarını yalamasına cavab Azərbaycanın bu gün istər regionda, istərsə də dünya siyasətində yaratdığı reallıqlardır. Baş nazir danışıqların formatını dəyişib qondarma rejimin qondarma rəhbərini tərəf kimi bu prosesə cəlb etmək istəyəndə, təhqiramiz davranış nümayiş etdirib Şuşada sərxoş vəziyyətdə rəqs edəndə, “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını səsləndirərək 27 ildə danışıqlar prosesində az da olsa əldə edilmiş irəliləyişin qarşısını alanda bunun hansı acı nəticələrə gətirib çıxaracağını düşünməli idi”.

## “Azərbaycan Prezidenti sülh tərəfdarıdır”



“Mən dəfələrlə demişəm ki, Dağlıq Qarabağda yaşayanların hamısı orada sülh və ləyaqət içində yaşamağa davam edəcəklər. Orada yaşayan ermənilər də bizim vətəndaşlarımızdır. Azərbaycanın müxtəlif yerlərində, Bakıda minlərlə erməni yaşayır”, deyə Ali Baş Komandan Cənab İlham Əliyev bildirib. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev bu sözləri İtaliyanın “La Respublika” qəzetinə müsahibəsində söyləyib və bir daha sülh tərəfdarı olduğunu, insanlığa, bəşəri dəyərlərə sadiqliyini bütün dünyaya bəyan etmişdir.” Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri xatırladıb ki, məlum olduğu kimi, erməni təcavüzkarları tərəfindən işğal olunmuş ərazilərdə, eləcə də əvvəllər yüz minlərlə azərbaycanlının yaşadığı Ermənistanda bu gün bir nəfər də azərbaycanlı yoxdur.

Azərbaycanlılar ağır işgəncələrə məruz qalaraq öz ata-baba torpaqlarından didərgin salınmış, qətlə yetirilmiş, şikəst edilmiş, başlarına min bir müsibət gətirilmişdir. Buna baxmayaraq Azərbaycan Prezidenti yenə də sülhə, danışıqlara, münasibətlərin yaxşılaşdırılmasına, düşmənçiliyin aradan qaldırılmasına üstünlük verir, Qarabağ torpaqları erməni faşistlərindən təmizləndikdən sonra ermənilərin ölkəmizdə sərbəst, xoşbəxt yaşayacaqlarını, onların təhlükəsizliyinin təmin edəcəyini bildirir. Ermənistanın baş naziri Nikol Paşinyanın mövqeyində isə biz bunun tam əksini görürük. Azərbaycan uzun illər işğal altında olan torpaqlarını düşməndən azad edir, bildirildiyi kimi, BMT Təhlükəsizlik Şurasının 27 ildə həyata keçirə bilmədiyi qətnamələrinin tələblərini yerinə yetirir, faşizmi əzir, Qafqazda sülh, əmin amanlıq yaradır, tarixi ədaləti bərpa edir. Ermənistan silahlı qüvvələri əzilir, məhv edilir, ağır itkilər verir.

Qələbə, uğurlar Azərbaycan tərəfində olmasına baxmayaraq dövlətimizin başçısı, Ali Baş Komandan yenə də sülhü müdafiə edir, atəşi dayandırmağı vacib bilir, beynəlxalq normalara, dövlət başçılarının təşəbbüslərinə hörmətlə yanaşır. Ancaq Ermənistan öz təcavüzkar əməllərindən əl çəkmir. Hər gün dinc əhalini raket atəşinə tutur, ərazilərimizi bombalayır, qadağan olunmuş silahlardan istifadə edir, torpaqları işğal altında saxlamaq, döyüşdə dönüş yaratmaq üçün yeni qüvvələr toplayır, muzdlu döyüşçülər yığır, demək olar ki, bütün çirkin əməllərə əl atır. Əlbətdə ki, belə bir vəziyyətdə Azərbaycan baş verənlərə laqeyd qala bilməz. Ölkəmizin rəhbərinin xatırladığı kimi mübarizə torpaqlarımızın son qarışı azad olunana kimi davam etdiriləcək və biz qalib gələcəyik. Çünki haqq bizimlədir. Ədalət bizim tərəfimizdədir. Qarabağ Azərbaycandır!”, deyə Tahir Rzayev bildirib.

# Azərbaycan beynəlxalq humanitar hüququn norma və prinsiplərinə söykənir

*“Bizim vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək idi və biz bu vəzifəyə yaxınlaşırıq”*



***Demokratik tərəqqi yolunu seçmiş Azərbaycan özünün qonşusu olan və olmayan digər dövlətlərlə müxtəlif sahələrdə həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı faydalı münasibətlərini inkişaf etdirib.***

Amma 30 ilə yaxın idi ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları - Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayır. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilirdi ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymadı və öz işğalçı siyasətini davam etdirdi. Bu gün artıq Azərbaycan müharibə yolu ilə öz torpaqların işğaldan azad edir. Azərbaycanın güclü ordusu və Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə torpaqlarımız işğaldan azad edilir. Demək olar ki, hər gün insanlarımıza qələbə sevinci yaşadılır. “Bizim vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək idi və biz bu vəzifəyə yaxınlaşırıq. Biz ərazi bütövlüyünün bərpasını demək olar ki, 30 il idi gözləyirdik”. Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın “La Repubblica” qəzetinə müsahibə verərkən bildirib.

**“MƏN DƏFƏLƏRLƏ DEMİŞƏM Kİ, BİZİM 100 MİN DÖYÜŞÇÜSÜ OLAN ORDUMUZ VAR, NİZAMİ ORDU”**

Ölkəmizin son illərdə dinamik inkişafı, silahlı qüvvələrin büdcəsinin artması və nəticə etibarilə ordumuzun güclənməsi nəticəsində bu gün Azərbaycan Vətən müharibəsində döyüş meydanında öz sözünü deyir. Bu gün Azərbaycanın güclü və müasir ordusu vardır. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir olan bir ordudur və belə gücə malik nizami ordu işğal altındakı torpaqlarımızı erməni təcavüzkarlarından təmizləyəcək və üçrəngli bayrağımız Dağlıq Qarabağda dalğalanacaqdır. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu döyüş meydanında erməniyə dərs verir. Azərbaycan işğalçı ölkəyə də, onun havadarlarına da, bütün ermənipərəstlərə də göstərir ki, güclü ordumuz işğalçı erməni qəsbkarlarını məhv edir. Düşmən tərəf ordumuzun qüdrətinə artıq bələddir. Döyüş meydanından qaçırlar. “Mən dəfələrlə demişəm ki, bizim 100 min döyüşçüsü olan ordumuz var, nizami ordu. Tam səfərbərlik elan etsək, bundan bir neçə dəfə çox adam səfərbər edə bilərik. Bizim müasir silahlarımız var. Mükəmməl texnologiyamız var və bizim çox yüksək döyüş ruhumuz var”. - deyə Prezident İlham Əliyev bildirib.

Amma təəssüflə də olsa bildirək ki, bu gün Ermənistan tərəfindən döyüşdə muzdlular var. “Bilirik ki, PKK oradadır. Bilirik ki, Yaxın Şərqdən bəzi terrorçular qondarma “Dağlıq Qarabağ ordusu”na qoşulublar” deyə bildirən dövlət başçısı qeyd edib ki, 30 il ərzində məğlubedilməz orduları olduqlarını bildirirdilər: “Onlar 30 il ərzində bizim əraziləri təkbaşına işğal etdiklərini deyirdilər, baxmayaraq ki, biz bunun doğru olmadığını bilirik. Beləliklə, biz onlara kimin kim olduğunu sübut etdik. Biz sübut etdik ki, onların “guya məğlubedilməz ordusu” əfsanədir, mifdir və bunu qəbul etmək onlar üçün çox ağrılıdır. Lakin onlar artıq öz məğlubiyyətlərini etiraf ediblər. Baş nazir Paşinyan Prezident Putinə məktub göndərərək hərbi yardım xahiş edib. Bu, onların hərbi məğlubiyyətlərini və bizim qələbəmizi qəbul etmələri deməkdir”.

**“ONLAR AZƏRBAYCAN XALQININ RUHUNU DÜZGÜN HESABLAYA BİLMƏMİŞDİLƏR”**

Dövlət başçısı Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı hücumuna da toxunaraq bildirib ki, onlar mülki şəxslərə hücum etməklə Azərbaycanda, həmçinin xaos və panika yaratmaq istəyirdilər: “Lakin onlar Azərbaycan xalqının ruhunu düzgün hesablaya bilməmişdilər. Bəli, biz bu namərd hücumlardan əziyyət çəkdik. Bu vaxtadək 91 nəfər mülki şəxs öldürülüb və 400-dən çox adam yaralanıb. Lakin bu, bizim iradəmizi sındırmadı. Əksinə, bu, bizi daha da güclü etdi”. Bu gün beynəlxalq təşkilatların müraciətləri və humanitar atəşkəs razılaşmalarına baxmayaraq, Ermənistan silahlı qüvvələri şəhər və kəndlərə, dinc əhaliyə və mülki obyektlərə raket hücumlarını davam etdirir. Bu onların xislətinin göstəricisidir. Azərbaycan Ordusu isə beynəlxalq humanitar hüququn norma və prinsiplərinə ciddi riayət edərək işğal altında qalan torpaqları düşməndən təmizləyir.

***Zümrüd BAYRAMOVA***

# "Azərbaycan Prezidenti EFE agentliyinə müsahibəsində həqiqətləri bir daha dünya ictimaiyyətinə çatdırdı"



***"Cəbhədəki vəziyyət Azərbaycan Ordusunun üstünlüyünü göstərir. Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir...".***

Bu fikirləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində səsləndirib. Milli Məclisin deputatı, professor Jalə Əliyevə müsahibə ilə bağlı fikirləri AZƏRTAC-la bölüşüb. O deyib: "Vətən müharibəsi başlayandan ötən 40 gün ərzində artıq sayını-hesabını itirdiyimiz növbəti möhtəşəm müsahibə...Mənfur, quduz düşmənə, onun havadarlarına, feyk xəbər istehsalçılarına, anti-Azərbaycan, antitürk ermənipərəst qüvvələrə verilən növbəti dərs, vurulan növbəti tərs sillə...Həqiqətin gözünə dik baxma, heç nədən çəkinməmə, yalanlar, iftiralar, qarayaxmalar üzərinə tutarlı, məntiqli, sərrast, daşdankeçən arqumentlərlə getmə. Bunu yalnız İlham Əliyev məntiqi, fəhmi, cəsarəti edə bilərdi və etdi.

Cəbhədəki qələbələrin bağlayıcı, tamamlayıcı davamı. Həm döyüş sahəsində, həm siyasət, diplomatiya və informasiya meydanında sarsıdıcı, məhvedici zərbə.

"İşğal olunmuş rayonlardan 5-dən 4-ü artıq ya tamamilə, ya da qismən azad edilib. Bu gün biz işğal altında olan digər rayonların işğaldan azad edilməsinin aktiv mərhələsindəyik" dedi Müzəffər Ali Baş Komandan. Prezident əlavə etdi ki, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik və artıq əsas prinsiplərin bir hissəsini yerinə yetirmişik. Çünki ATƏT-in Minsk qrupu tərəfindən təklif olunan həll üçün əsas prinsiplər faktiki olaraq Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılmasını tələb edirdi. Ancaq əfsuslar olsun ki, Ermənistan könüllü şəkildə bunu etmək istəmirdi, ona görə də biz onları bunu etməyə məcbur etməli olduq.

Ali Baş Komandan onu da bildirdi ki, müharibə bəlkə bir ay əvvəl bitərdi. Ancaq düşmən tərəfin təcavüzkarlıq siyasətindən əl çəkməməsi bunu mümkünsüz etdi. Bununla belə, əgər düşmən ölkə müharibənin bitməsində maraqlıdırsa, o zaman Ermənistan tərəfdən kompromis çox dəqiq olmalıdır. Hələ də işğal altında olan Ağdam rayonunun bir hissəsini, Kəlbəcər və Laçını boşaltmaq üçün vaxt cədvəli təqdim edilməlidir, özü də Ermənistanın baş naziri bunu şəxsən bəyan etməlidir.

Lakin Prezidentin də əlavə etdiyi kimi, onlar nəinki bizə vaxt cədvəli vermirlər, onlar həmin əraziləri boşaldacaqlarını demirlər. Sentyabrın 27-dən bu yana bütün bu vaxt ərzində Ermənistanın hərbi-siyasi rəhbərliyi ərazilərin boşaldılacağı barədə heç vaxt heç nə deməyib. Belə olan halda, onlar 7 rayonun qaytarılmasını təmin etmək üçün bu prinsipləri işləyib hazırlamış Minsk qrupunun həmsədrlərinə faktiki olaraq hörmətsizlik nümayiş etdirirlər və daha çox eskalasiyaya gətirib çıxarırlar. Beləliklə, biz Ermənistanın baş nazirinin Kəlbəcər, Laçın və Ağdamın qalan hissəsini boşaldacaqlarını açıq şəkildə deməsini gözləyirik...

Müsahibə zamanı daha bir əsassız məlumat - muzdlu məsələsi ilə bağlı suala verilən güllə kimi sərrast cavab: "Mən bu ittihamlara, bu əsassız ittihamlara dəfələrlə cavab vermişəm. Səmimi desəm, təəssüflənirəm ki, bitərəf olmalı, onlara ATƏT tərəfindən verilmiş mandata əsasən hərəkət etməli olan ölkələrin yüksək səviyyəli rəsmiləri təsdiqini tapmamış bu əsassız dırnaqarası "informasiya"dan və şayiələrdən istifadə edirlər. Bu, birincisi. İkincisi, bizdə heç bir muzdlu yoxdur. Mən bu haqda dəfələrlə demişəm. Bizim onlara ehtiyacımız yoxdur.

Bizim 100 min döyüşçüdən ibarət ordumuz var, biz tam səfərbərlik elan etsək, bundan bir neçə dəfə çox toplaya bilərik. Lakin biz Ermənistandan fərqli olaraq bunu etmirik. Bizim tərəfimizdə hər hansı bir əcnəbi döyüşçünün vuruşması ilə bağlı heç bir sübut yoxdur. Bu bir aydan çox müddət ərzində bizə heç bir sübut, heç bir sənəd, heç bir dəlil təqdim edilməmişdir. Yalnız bəyanatlar. Bəs, onda nə üçün onlar Ermənistan tərəfində baş verənləri, Ermənistan tərəfindən neçə muzdlunun döyüşdüyünü görmürlər? Nə üçün bizi ittiham etməyə çalışan nə Rusiya, nə də Fransa bunun haqqında heç nə deməyib?".

Dövlətimizin başçısından daha bir sərt mesaj və xəbərdarlıq: "Əgər biz bizi muzdlularla bağlı ittiham edənləri dünyanın müxtəlif yerlərində nə etdikləri haqqında ittiham etməyə başlasaq, bu, çox uzun bir məsələ olacaq...".

Bəli, Ali Baş Komandanın dediyi kimi, biz danışmağa başlasaq, "sandığı açıb, pambığı töksək", o zaman çoxları gizlənməyə deşik belə tapmazlar və tapmayacaqlar...Çünki onlardan fərqli olaraq, bizim əlimiz doludur, bizim əlimiz də, dilimiz də arqumentlidir, biz faktlara, sübutlara malikik, onlar yox...Ona görə sussalar yaxşıdır, necə ki, illərdir həqiqəti görə-görə, susurlar, həqiqətin yox, yalanın yanında yer alırlar...Onlardan artıq heç nə istəmirik və gözləmirik, sadəcə, yolumuza daş-kəsək olmasınlar...

Biz haqq savaşındayıq, haqq mübarizəsi apararıq, düşmənə cəbhədə cavab veririk. Haqq da, ədalət də bizim yanımızdadır. Bu dəfə biz qalib gəlirik və qalib gələcəyik. Qələbə də bizimdir, Qarabağ da bizimdir, qələbə də bizim olacaq, Qarabağ da bizim olacaq! Qarabağ Azərbaycandır və Qarabağ Azərbaycanındır!".

# Elşad Mirbəşiroğlu: "Azərbaycan Prezidenti EFE agentliyinə müsahibəsində Ermənistanın təcavüzkar siyasətini bir daha ifşa etdi"

***Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı vəziyyəti bir daha çox aydın şəkildə və çox ciddi faktlara əsaslanaraq dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Dövlətimizin başçısı 30 ildir işğal altında qalan torpaqlarımızın əsas hissəsinin azad edildiyini bildirdi və vurğuladı ki, bu, Azərbaycan dövlətinin və Ordusunun gücünü bir daha göstərir. Azərbaycan haqlı tərəfdir və beynəlxalq səviyyədə qəbul edilən ərazi bütövlüyünü bərpa edir.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu bildirib. Deputat münaqişənin ilk günlərindən başlayaraq Azərbaycanın hər zaman danışıqlara hazır olduğunu, problemin sülh yolu ilə həll olunmasının tərəfdarı kimi çıxış etdiyini diqqətə çatdırdı. Münaqişənin həlli istiqamətində ATƏT-in Minsk qrupu vasitəçilik missiyasını yerinə yetirmədi. Madrid prinsipləri üzrə məsələnin həllində heç bir nəticə əldə olunmadı. Təbii ki, Azərbaycan tərəfi Madrid prinsipləri üzrə öz mövqeyini ortaya qoymuşdu. Azərbaycan son ana qədər münaqişənin həlli üçün bütün məsuliyyəti dərk edib və sülhə, danışıqlara hər zaman hazır olduğunu bəyan edib. Azərbaycan bu gün öz ərazi bütövlüyünü bərpa edir və buna haqqı var.

E.Mirbəşiroğlu bildirib ki, Azərbaycan öz torpaqlarının işğaldan azad olunması istiqamətində həlledici mərhələyə qədəm qoyub və bu vəzifənin yerinə yetirilməsində baza prinsiplərinə əməl edir. Azərbaycan tərəfi münaqişənin nizamlanması istiqamətində nə qədər cəhd göstərsə də, qarşı tərəf bu təkliflərlə razılaşmadı. Ermənistana uzun müddət təzyiq göstərilmədiyi üçün öz işğalçı siyasətindən əl çəkmədi. Azərbaycan bu gün baza prinsiplərinə uyğun olaraq öz torpaqlarını işğaldan azad edir.

Deputat diqqətə çatdırıb ki, Azərbaycan beynəlxalq hüququn normaları çərçivəsində müharibənin qayda-qanunlarına tamamilə riayət edir, humanizm prinsiplərini əsas tutur. Qarşı tərəf isə beynəlxalq qayda və qanunlara riayət etmir. Ermənistan üç dəfə razılaşdırılmış atəşkəsi pozub. Buna görə Ermənistan günahkardır. Bu da onu göstərir ki, Nikol Paşinyan müharibənin dayanmasını istəmir. Atəşkəsi pozan Ermənistan Azərbaycanın Gəncə, Bərdə şəhərlərini raket atəşinə tutdu. Ümumilikdə, indiyədək 91 mülki şəxs həlak olub, 400-dən artıq insan yaralanıb. Qarşı tərəf mülki şəxslərə hücum etməklə Azərbaycanda xaos və təşviş yaratmaq istəyirdi, amma buna nail olmadı.

Azərbaycan Ordusunun düşməni həm texnika, həm də canlı qüvvə baxımından ciddi itkilərə məruz qoyması onu çətin vəziyyətə salıb. Paşinyan çıxılmaz vəziyyətdə qalıb. Ermənistan əhalisi zorla orduya cəlb olunur. Təbii ki, Azərbaycanın nizami ordusu qarşısında düşmənin pərakəndə ordusu duruş gətirə bilməz.

Deputat bildirib ki, düşmən ordusunun çətin vəziyyətə düşməsi onun muzdlulardan istifadə etməsinə gətirib çıxardı. Ermənistan tərəfdən Yaxın Şərqdən və PKK-dan olan terrorçuların vuruşması faktdır. Özü muzdlulardan istifadə etdiyi halda, qarşı tərəf bizi bunda günahlandırır. Azərbaycan Prezidenti İspaniyanın EFE agentliyinə müsahibəsində ayrıca olaraq vurğuladı ki, torpaqlarımızın işğaldan azad olması üçün bütün mümkün qüvvələrdən və silahlardan istifadə olunur və bizim əlavə gücə ehtiyacımız yoxdur. Terrorçulardan və muzdlulardan istifadə edilməsi Cenevrə konvensiyalarına görə beynəlxalq cinayətdir. Azərbaycan Prezidenti əsassız ittihamlara qarşı cavab verərək bildirdi ki, bizdə muzdlular vuruşmur.

Politoloq qeyd edib ki, Ermənistan beynəlxalq müstəvidə də tək qalıb. Paşinyan kömək üçün nə qədər başqa ölkələrə və dövlət başçılarına müraciət etsə də, onun səsinə səs verən olmadı. Ermənistan öz işğalçılıq siyasətinin qurbanına çevrilir. Bunu bu gün dünya erməniləri də görürlər.

Azərbaycanın haqlı mövqeyini indi bütün dünya qəbul edir. Dövlətimizin başçısı Azərbaycanın sülhsevər olduğunu və dünyada qlobal əməkdaşlığa töhfə verən ölkə olduğunu qeyd edib. Ermənistan həmişə münaqişənin nizamlanması prosesində qeyri-konstruktiv mövqe nümayiş etdirib və danışıqlardan qaçıb. Münaqişənin dondurulması Ermənistanın maraqlarına uyğun olub. Ermənistan kənardan idarə edilən marionet ölkə kimi həmişə regionda sülhə və təhlükəsizliyə maneə olub. Azərbaycan Prezidenti bir daha Ermənistanın təcavüzkar ölkə və regionda sabitliyin düşməni olduğunu diqqətə çatdırdı.

# Erməni seqmenti: "Dağlıq Qarabağ üzərində bir həftəyə nəzarət tamamilə itəcək"

*General-leytenant Onik Qasparyan, Karen Abrahamyan və digər generallar Nikol Paşinyana susmayacaqlarını bildiriblər*

İşğalçı Ermənistan ordusunun və bu ölkənin marioneti - separatçı "DQR"in qanunsuz hərbi birləşmələrinin Qarabağ cəbhəsindəki ard-arda aldıqları sarsıdıcı məğlubiyyətlərinin ardınca baş nazir Nikol Paşinyanın iştirakı ilə mərkəzi hərbi komandanlığın bunkerində iclas keçirilib. SİA xəbər verir ki, bu barədə Paşinyan hökumətinə müxalif olan jurnalistlər qrupu telegram və digər sosial şəbəkə seqmentlərində məlumat yayıblar. Belə ki, gizli müşavirədə Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi, general-leytenant Onik Qasparyan və onun müavini Karen Abrahamyan Nikol Paşinyana vəziyyətin kritik olduğunu çatdırmaqla yanaşı, onu da bildiriblər ki, artıq Azərbaycan ordusu Turşsu - Şuşa yolunu tamamilə nəzarətə götürüb. Erməni jurnalistləri bunu Laçın - Şuşa yolu ilə əlaqələndirməklə Azərbaycan Ordusunun cəbhə xəttində sürətlə irəlilədiyinə işarə ediblər.



## Baş qərargah rəisi xilas üçün əsas rıçağın Rusiya olduğunu deyib

Sözügedən məsələdə xüsusilə qeyd olunub ki, general-leytenant Onik Qasparyan kəskin bir müdaxilə edilməyəcəyi təqdirdə, Azərbaycan ordusunun bir həftəyə Şuşa - Xankəndi üzərində nəzarəti ələ keçirəcəyini bildirib. Baş qərargah rəisi xilas üçün əsas rıçağın Rusiya olduğunu deyib və Paşinyana Rusiyadan təcili müdaxilə üçün müraciət etməyi tövsiyə edib. "Əsk-təqdirdə Dağlıq Qarabağ üzərində bir həftəyə nəzarət tamamilə itəcək", erməni seqmentləri yazır. Ancaq fakt budur ki, Rusiya tərəfi öz sözünü deyib və Azərbaycanın öz torpaqlarında mübarizə apardığını da etiraf edib. Bu baxımdan, münaqişəyə cəlb olunmayacağını da bir neçə rəsmi şəxsləri tərəfindən açıqlayıb.

Lakin sözügedən məsələdə daha bir maraqlı fakt hərbi komandanlıq daxilində yaranmış böhranla yanaşı, komandanlığın siyasi hakimiyyət rəhbərliyi ilə də anlaşılmazlıqlar yaşaması ilə bağlıdır.

## Erməni hərbçiləri müharibənin nəyə görə uduzulması səbəblərini açıqlayacaqlar

Belə ki, mənbənin qeyd etdiyinə görə, əgər birdəfəlik məğlubiyyət baş verəcəyi təqdirdə, qərargah rəisi, general-leytenant Onik Qasparyan, Karen Abrahamyan və digər generallar susmayacaqlarını, müharibənin nəyə görə uduzulması səbəblərini açıqlayacaqlarını da bildiriblər.

Əgər biz Azərbaycanın Müdafiə Nazirliyinin rəsmi informasiyalarının ardıcıllığını və təqdim edilən rəsmi videomaterialları izləyərsək, bir daha əmin olarıq ki, cəbhənin müxtəlif xətlərində inamla irəliləyən Azərbaycan Silahlı Qüvvələri çox yaxın vaxtlarda növbəti zəfər və qələbələri ilə xalqına sevinc, fərəh və qürur hissi bəxş edəcək. Hər halda, işğalçı və quldurların düşdükləri mövcud vəziyyət də, məhz bu cür qənaətə gəlməyə kifayət qədər zəmin yaratmaqdadır.



# Qarabağda yeni həyat başlanacaq

*Prezident İlham Əliyev: “Qarabağı bərpa etmək, onu yer üzündə ən gözəl və həyat üçün rahat guşələrdən birinə çevirməkdən bizi dayandıra biləcək maddi maneə yoxdur”*

***Azərbaycanın işğal altında olan ərazilərini xarabalığa çevirən ermənlər öz milli xüsusiyyət və tələbatları çərçivəsində bu məkanlarda vəhşilik missiyalarını həyata keçiriblər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın İnterfaks agentliyinə müsahibəsi zamanı bildirdiyi kimi, Ağdamın, Cəbrayıl rayonunun xarabalıqlarına baxın. Hər şey dağıdılıb: “Elə bil buradan vəhşilər keçiblər.***

Elə bil bunlar insan deyilmiş. Onlar hər şeyi sökub-dağıdıblar”. Qarabağ torpağının təbii sərvətlərinin ermənilər tərəfindən özbaşına istismar olunması, ekoloji durumuna ağır zərbə vurulması, əraziləri xarabazarlıqla çevirmələri faktları Ermənistanın həyata keçirdiyi sivil vəhşilik siyasətinin göstəricisidir. “Biz Füzuli şəhərini işğaldan azad edəndə orada bircə salamat bina tapa bilmədik. Təsəvvür edirsinizmi? Bütün şəhərdə, halbuki orada 10 minlərlə insan yaşayırdı. Bircə bina da qalmayıb. Mənə zəng vurdular, dedim ki, bayrağı dirək üzərində qaldırın. Görün, onlar nə ediblər” - deyə Cənab İlham Əliyev bildirmişdir.

Təəssüflə də olsa qeyd etməliyik ki, Azərbaycanda olan əlverişli təbii şərait, onun sıx meşələri erməni təcavüzkarları tərəfindən talan edilərək məhv olunub. Müharibə zonalarında dağıdıcı silahlardan və ağır texnikadan geniş istifadə olunduğuna görə ərazinin təbiətinə və ekoloji şəraitinə dəhşətli bir şəkildə ziyan vurulmuşdur. İşğalda olan Azərbaycan torpaqlarında ağır hərbi-texnikanın nəticəsi olaraq torpağa çökən kimyəvi maddələr bu ərazilərdə ekoloji mühitin, tarazlığın pozulmasına gətirib çıxarıb. Mürahibə dövründə bu ərazilərə çoxlu miqdarda atılan mərmilər, bastırılmış minalar təbii ki. ekolji mühitin zəhərlənməsinə, çirklənməsinə birbaşa səbəb olan amillərdir. Müharibənin törətdiyi əngəlliklər azmış kimi dağ meşələri ucdantutma qırılaraq qonşu ölkələrə daşınıb, nadir bitki və heyvanların kökü demək olar ki, kəsilib.

Dağlıq Qarabağın ətrafındakı Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Ağdam rayonlarının ərazilərində təbiətə qarşı olan ermənilərin amansızsızlıq aksiyası onların Azərbaycan ərazilərinə qarşı qısqanclığını, iddialı mövqedən çıxış edib, özünəməxsus formanı tətbiq etməsi ilə yanaşı, bir məntiqin də gerçəkliyini təsdiqləyirdi. Bu, ermənilərin Qarabağ ərazisində müvəqqəti olduğunu təsdiqləyən faktor idi. Ermənilər təbii ehtiyatlardan, faydalı qazıntı yataqlarından vəhşicəsinə istifadə edərək, asan istifadə edilə bilən mineral suları, müxtəlif texniki materialları, ehtiyatları, daha çox mənimsəmişdilər.

Füzuli rayonunda işğal olunmuş ərazilərdə təbiətin ermənilər tərəfindən güclü ekoloji dağıntıya məruz qalması hər kəsə bəllidir. Rayon ərazisinə yaxın olan Azıx və Tağlar mağaraları dünya tarixinin qədim abidəsi kimi YUNESKO-nun siyahısına düşmüşdür. Rayonun ən böyük meşələrindən olan Ərgünəş meşəsində ermənilər yanğın törətmişdilər. Yanğın nəticəsində ərazidə olan qiymətli ağac və kollar məhv olmuş, təbiətə xeyli ziyan vurulmuşdur. Belə yanğınlar ekoloji mühitin pozulmasına, heyvanat aləminin tələf edilməsinə və atmosferin çirklənməsinə səbəb olur.

Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır. Bunun arxasında ermənilərin utopiyaları, eləcə də xalqın tarixinə qarşı təcavüz planı dayanır.

İstirahət üçün böyük məkan olan və ekoloji cəhətdən əhəmiyyət daşıyan “Daş-başı” və “Leşkar” meşələrində ermənilərin yanğın törətməsi də bir faktdır. “Leşkar” meşə sahəsində isə yararlı ağacları tam qırıb aparıblar. Tikinti materialı kimi Ermənistan Yunanıstana və İrana ixrac etdiyi ağac materialını istehsal etmək imkanında deyil.

Laçın dövlət yasaqlığında cüyür, qaya keçisi, çöl donuzu, ayı və s. quşlardan isə turac, kəklik və s. məskunlaşmışdır. Burada 1989-cu ildə aparılan yoxlanmada: dağ-keçisi (bezoar keçisi) 96 baş, qaban 360 baş, cüyür 320 baş, ayı 110 baş, canavar, porzuq, dələ və s. heyvanlar, quşlardan qırqovul 200, kəklik 1500 məskunlaşmışdır. 1991-ci il mart ayında aparılan yoxlama nəticəsində ermənilər tərəfindən heyvanların və quşların sayı xeyli azalmışdır.

Qubadlı dövlət yasaqlığında isə işğaldan əvvəl müəyyən olmuşdur ki, burada 101 baş çöl donuzu, 21 baş qonur ayı, 35 baş cüyür, 420 baş dovşan, 25 baş canavar, 310 baş çaqqal, 75 baş porsuq vardır. Quşlardan ən çox kəklik yayılıb. Qırqovul, turac, bildirçin, göyərçin bu yerlərin daim sakinlərindəndirlər. Bu yasaqlıq işğal altında olduğu zamanda ermənilər bu xəzinədən vəhşicəsinə istifadə ediblər.

Belə bir səfalı yerlərə malik, turizmin inkişafına böyük təkan olacaq yerlərimizin ermənilərin əlində qalması əlbəttə ki, Azərbaycanın iqtisadi inkişafına, onun turizm imkanlarının genişlənməsinə zərbə vurub.

**“ERMƏNİSTAN KƏLBƏCƏRDƏ BİR NEÇƏ XARİCİ ŞİRKƏTLƏ BƏRABƏR QIZILIN QANUNSUZ HASİLATINI HƏYATA KEÇİRİR”**

Azərbaycanın işğal olunmuş əraziləri uzun illərdən bəri beynəlxalq nəzarətdən kənarda qaldığına görə, həmin ərazilərdən ayrı-ayrı terrorçu qruplar və cinayətkar dəstələr narkotranzit və qaçaqmalçılıq məqsədlərini reallaşdırıblar. Belə ki, Ermənistan tərəfindən bu ərazidə qacaqmalcılıq və narkotik maddə daşınması əməliyyatları baş tutub. Rəsmi məlumatlara istinadən deyə bilərik ki, işğal altında olan Qarabağın nəzarətsiz məkanlarında narkotika bitkilər yetişdirilib və onların məhsulları gizli yollarla Rusiya və Avropa ölkələrinə ötürülüb.

Azərbaycanın işğal edilən ərazilərindən çıxarılan qızıl Dağlıq Qarabağdan daşınıb. Belə ki, deklarasiya edilməyən qızıl gizli yollarla Livana aparılıb. Burada qiymətli metallar bazarına nəzarət edən ermənilər tərəfindən Livan qızılı kimi satılıb. Əvvəllər bu işdə “Kanada Livan Bankı” da iştirak edib. Hətta Köçəryan-Sarkisyan cütlüyü Qarabağ qızılı ilə “Hizbullah” terrorçularının güclənməsinə kömək edib.

Qeyd edək ki, Kəlbəcər rayonunun təbii sərvətləri Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları işğal müddətində Ermənistan tərəfindən talan edilib. “Ermənistan Kəlbəcərdə bir neçə xarici şirkətlə bərabər qızılın qanunsuz hasilatını həyata keçirir” - deyən Cənab Prezident onların hamısının müvafiq hüquqi prosedurlar vasitəsilə məsuliyyətə cəlb ediləcəyimizi bildirib.

Bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Qarabağın işğal altına düşməsi Azərbaycanın torpaq və ərazi itkisi ilə yanaşı, bir sıra iqtisadi, sosial, mədəni problemlərlə üzləşməsinə də gətirib çıxarıb. İşğal edilən torpaqlardakı təbiət gözəllikləri kurortlar, istirahət və əyləncə mərkəzləri, müalicəvi xarakterinə görə də şöhrət tapmışdı.

Qarabağ torpaqlarının işğalda qalması nəticəsində böyük bir turizm potensialı, əvəzsiz flora və fauna məhv edilib. Azərbaycanın tarixi mədəniyyət mərkəzlərindən biri olan Qarabağ ərazisi xarabalığa çevrilib, ermənilərin iyrənc, məkrli siyasəti nəticəsində ekoloji mühiti yararsız hala salınıb ki, bunun da bərpasına və yenidən yaşayış və həyat səviyyəsinin normal vəziyyətə salınmasına zaman tələb olunur. Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətlə bildirdiyi kimi, “Qarabağı bərpa etmək, onu yer üzündə ən gözəl və həyat üçün rahat guşələrdən birinə çevirməkdən bizi dayandıra biləcək maddi maneə yoxdur”.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İşğal altında olan su təsərrüfatı və meliorasiya obyektlərinin sayı açıqlanıb

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti işğal altında olan su təsərrüfatı və meliorasiya obyektlərinin sayını açıqlayıb. ASC-dən SİA-ya verilən məlumata görə, işğal altında su anbarlarının sayı 9 (Suqovuşan su anbarı artıq azad edilib), su tutarlarının sayı 7 olub. Erməni işğalı altında olan torpaqlarımızdakı suvarma şəbəkələrinin uzunluğu 6426 km, hidroqovşaqların sayı 2, kollektor-drenaj şəbəkəsinin uzunluğu 330 km, hidrotexniki qurğuların sayı 8003, nasos stansiyalarının sayı 88, subartezian quyuların sayı 1429 ədəd olub. Azərbaycanda 125 800 ha suvarılan torpaq sahəsi işğal altında qalmışdı.



ASC-dən qeyd edilib ki, Qələbədən sonra işğaldan azad edilmiş ərazilərimizdəki su təsərrüfatı və meliorasiya obyektlərinin sayının daha dəqiq müəyyən edilməsi üçün xüsusi komissiyalar yaradılacaq. Bu komissiyalar tərəfindən aparılan araşdırma nəticəsində istifadəyə yararlı olan su təsərrüfatı və meliorasiya obyektləri müəyyən ediləcək.

Qələbədən sonra həmin obyektlərin işə düşməsi su təminatı çətin olan ərazilərə suyun davamlı verilməsinə, əkin sahələrinin genişləndirilməsinə, su qıtlığının aradan qaldırılmasına, kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə edilməsinə və ekoloji tarazlığın bərpa edilməsinə təminat yaranacaq. Bütün bunlar isə son nəticədə ölkədə bol məhsuldarlığın yaranmasına imkan verəcək.

## Erməni təcavüzü nəticəsində ölən mülki şəxslərin sayı 92 oldu



Erməni təxribatı nəticəsində ölən və yaralanan mülki vətəndaşların sayı açıqlanıb. Baş Prokurorluğun mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, sentyabrın 27-dən hazırkı vaxtadək ermənilərin yaşayış məntəqələrini atəşə tutması nəticəsində 92 mülki şəxs həlak olub, 404 nəfər yaralanıb. Bundan başqa, 502 mülki obyekt, 100 hündürmərtəbəli yaşayış binası və 2971 yaşayış evi yararsız hala düşüb.

# Saman çöpündən yapışan Ermənistan hakimiyyəti

***Sentyabrın 27-dən bəri Qarabağda Azərbaycanla Ermənistan arasında şiddətli döyüşlər gedir. Azərbaycan işğal olunmuş əraziləri azad etmək üçün əks-hücum əməliyyatı aparır. Erməni tərəfi, beynəlxalq hüquqa zidd olaraq, Azərbaycanın işğal olunmuş ərazilərində çox sayda silah yerləşdirməsinə baxmayaraq saysız-hesabsız itkilər verir. Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazisi ilə bağlı əvvəlki əksər toqquşmalardan fərqli olaraq indiki münaqişədə müasir silahlardan istifadə edilir.***



"Jamestown" nəşri Azərbaycan hərbçilərinin döyüş meydanında üstünlüyə sahib olduğunu yazır. Qeyd olunur ki, döyüş meydanında çox sayda müasir silahların istifadəsi Azərbaycanın taktiki imkanlarını əhəmiyyətli dərəcədə artırıb, eyni zamanda potensial insan itkilərini məhdudlaşdırıb. Bundan əlavə, Azərbaycanın taktiki üstünlükləri, yenilikləri Ermənistanın hava hücumundan müdafiə sisteminin imkanlarını daha da sarsıdıb. Doğrudur, müharibənin ilk günlərindən cəbhədə PUA-nın istifadəsi üstünlüklər yaradır, lakin Azərbaycanın uğuru təkcə qabaqcıl texnologiya ilə deyil, həm də üstün taktikalar sayəsində baş verir. Azərbaycan yeni bir hərbi strategiyadan istifadə edərək, Ermənistanın möhkəmləndirilmiş müdafiə xəttlərinə, istehkamlarına qarşı intensiv və dəqiq artilleriya zərbələri endirir. Bu yanaşma da göründüyü kimi, insan, canlı qüvvə itkilərini azaldır və bir sıra gözlənilməz halları aradan qaldırır.

Bu günə qədər Azərbaycan Ordusu bütün istiqamətlərdə durmadan irəliləyib. Azərbaycan Silahlı Qüvvələri Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlını, elcəcə də bu rayonların çoxlu sayda kəndlərini, digər yaşayış məntəqələrini də azad edib, beləliklə 30 ilə yaxın bir müddətdə ilk dəfə İran-Azərbaycan sərhədinə tam nəzarət təmin edilib. Ermənistana məxsus bir sıra mətbuat səhifələri yazır ki, Azərbaycan hərbçiləri indi Şuşa, qondarma respublikanın paytaxtı Xankəndinin azad olmasına yaxındırlar. Əslində isə, bu, indiyə qədər gizlədilən informasiyalar fonunda belə, Azərbaycanın uğurlarının, qələbəsinin etirafıdır.

Xarici güclər münaqişəyə qarışmadıqca, Azərbaycanın döyüş impulsu dəyişməz qalacaq. Bu o deməkdir ki, gələcək atəşkəs yalnız Bakının şərtləri ilə bağlanacaqdır. Necə deyərlər, güclü tərəf şərtləri diqtə etdiyi kimi, bundan sonra da şərti qoyan məhz Azərbaycan olacaq və o şərtlərin də ilk əvvəldən nə olduğu bəllidir.

Göründüyü kimi, bütün üstünlüklər Azərbaycan tərəfinə məxsusdur. Ən strateji yüksəkliklər ələ keçirilib, düşmənin 30 il müddətində qurulan istehkamları dağıdılıb və Azərbaycan Ordusu döyüşə nəzarət edir. Hər gün ölkə başçısı, Ali Baş Komandan Cənab İlham Əliyev müzəffər Azərbaycan Ordusunun işğaldan azad etdiyi yeni-yeni əraziləri elan edir, Azərbaycanın döyüş meydanında uğurlarını bəyan edir. Döyüş meydanında düşmənin istər canlı qüvvə, istər hərbi texnika, istər silah-sursat itgisini əks etdirən video-görüntülər də deyilənləri təsdiq edir. Bunu beynəlxalq müşahidəçilər də etiraf edirlər və hətta bir sıra hərbi ekspertlər Azərbaycanın ən yaxın zamanda mütləq qələbə əldə edəcəyini təsdiqləyirlər. Bir sözlə, reallıq, bizim qələbəmiz göz önündədir və bu faktlarda da öz əksini tapır.

Düşmən itgilər verməkdə davam edir. Artıq canlı qüvvə, hərbi texnika tapılmır ki, cəbhə xəttinə, döyüş bölgəsinə göndərilsin. Ötən əsrin ortalarından qalan silah, sursatı ermənilər istifadə edir. Ona görə ki, bu silahlar onların ödənişi müqabilində əldə edilməyib. Cənab Prezidentimizin də qeyd etdiyi kimi, çox kasıb, rəzalət içərisində olan Ermənistanın bu silahları almağa maddi imkanı yoxdur. Məhz ödəniş müqabilində deyil, hansısa şərtlər daxilində göndərilən Rusiya istehsalı olan silahlara əlbəttə ki, ermənilər hansısa tələb qoya bilməzlər. Bu baxımdan da ruslar cürbəcür xəlvət yollarla ermənilərə silah-sursat ötürə bilərlər, amma, necə deyərlər pulsuz olaraq bu ötürdükləri dünya bazarına çıxarılacaq silahlar ola bilməz. Çünki, müasir silahları Rusiya da dünya bazarına ixrac edir və satılmayan köhnəlmiş silahlar Ermənistan kimi bir işğalçı ölkəyə göndərilir və bu da həmin ölkənin daha da asılı vəziyyətə salınmasını təmin etmək məqsədi daşıyır.

Ola bilsin ki, ermənilər rusların bu ödənişsiz əsaslarla, özü də xəlvət yollarla silah ötürməsindən hələ də ruhlanırlar. Amma dərk etmirlər ki, əvvələ bu silahlar Azərbaycan Ordusunun silahlanması ilə müqaisə oluna bilməz. Digər tərəfdən də bu silahların da əvvəlkilər kimi ən qısa zamanda sıradan çıxarılacağını kimsə təkzib edə bilməz və yenə də ermənilərin gözləri göyə dikiləcək ki, görsünlər başlarına nə yağır. Belə olan halda, bu silahlar ermənilərin özlərini qırır, rəqiblərini yox. Çünki, döyüş meydanında silah baxımından da üstünlüyü Azərbaycan ələ alıbsa, deməli, bu silahlarla onlar özlərinə hökm kəsmiş olurlar. Ölüm hökmü.

Ermənistanın siyasi rəhbərliyi, işğalçı ölkənin hakimiyyəti vətəndaşlarını qırğına verir. Bilərəkdən məhv olmasına göz yumur. Hətta bu qırğının təşkilatçısı kimi durmadan çalışır. Bilə-bilə ki, hərbi-texnika təchizat, iqtisadi imkanlar, potensial baxımından Azərbaycan dəfələrlə üstünlüyə malikdir, hələ də erməni xalqı deyilən kütləyə bu ölkənin hakim dairələrinin yazığı gəlmir. Onlara aldadıcı məlumatlar verərək qələbələr vəd edirlər, halbuki, bilirlər ki, mütləq şəkildə qələbə Azərbaycana məxsusdur və bundan qaçılası deyil. Səbəb də öz hakimiyyətlərinin müddətini bir az da uzatmaqdır. Necə deyərlər, suda boğulan saman çöpünə də əl uzadar. İndi Ermənistan rəhbərliyinin lazımsız, vaxtı keçmiş silahlara əl üzatması da bu mənadadır. Çünki, başda Nikol Paşinyan olmaqla, bütün səlahiyyətlilərin "humanitar yardım" təyyarələrində gətirilən "yardıma" əl uzatmaları çarəsiz boğulmaları səbəbindəndir. Əslində isə, Ermənistan hakimiyyəti dərk etməlidir ki, saman çöpü xilas yolu olmadığı kimi, aldıqları dırnaqası "humanitar yardım" da onlar üçün xilas yolu deyil.

Bir tərəfdən də, qondarma rejim rəhbərliyinin Dağlıq Qarabağdan qaçan, xəstə təxəyyüllü "başbilənlərdən" canını qurtaran erməni səlahiyyətlilərinin vəzifələrindən azad edilməsi əmrindən tutmuş, yolların bağlanılmasına, Ermənistan sakinlərinin, bütün ermənilərin səfərbərlik çağırışlarına qədər bütün addımları məhz xalqın, böyük kütlənin qırğını deməkdir ki, hazırki Ermənistan hakimiyyəti buna gözünü qırpmadan gedir. Araik Arutyunyan Dağlıq Qarabağdan İrəvana köçən sakinləri xəyanətkar adlandırdığı halda, öz dırnaqarası hakimiyyətinin qərargahını İrəvana daşıyıbsa, bu işğalçılara qaniçən adından başqa nə ad qoymaq olar?

Cəbhə xəttinə, döyüşə erməni qadınlarının da getdiyi faktları var və əslində bunu Paşinyan hakimiyyəti özü bəyan edir, hətta utanmadan bununla lovğalanır da. Bəzi erməni yazarlar, politoloqlar da üz tutur erməni kişilərinə və bunun onlar üşün utancverici olduğunu yazırlar. Ermənistana məxsus mətbuat səhifələri belə yazılarla doludur və hər yazıda erməni kişisinə erməni qadını nümunə çəkilir. Cənab Prezidentimiz demişkən, görün biz hansı düşmənlə üz-üzəyik... Sözün əsl mənasında, qadınını qabağa verən düşmənlə, şərəfsizlə üz-üzə gəlmək çox çətin məsələdir, amma, müzakirə mövzusu başqa bir məsələdir. Müzakirə mövzusu düşmənin öz qadınları, qoca, yaşlı vətəndaşları, hətta yeniyetmə uşaqları belə döyüşə səfərbər etməsi kimi qaniçən siması, daha doğrusu simasızlığıdır. Bu simasızlıqla erməni xislətinə müvafiq şəkildə insanlar, "böyük Ermənistan" kimi bir xəstə təxəyyülə qurban verilir, qırğınına da göz yumulur. Özgə torpaqlarının zəbt edilməsi, işğal edilməsi yolunda anaları gözü yaşlı qoyan faşist niyyətlilər, indi həta ən ucuz məqama, bir kreslo, vəzifə üçün bütün xalqın varlığını qumara qoyub. Qarabağın əldə getdiyi an hakimiyyətinin əlindən çıxacağını bilən Paşinyan və onun komandası bir gün belə hakimiyyətdə qalmaq üçün yüzlərlə Ermənistan vətəndaşının canına qıyır. Bir necə gün hakimiyyətini saxlamaq üçün vətəndaşlarını qırğına verməklə də saman çöpündən yapışır bu erməni səlahiyyətliləri. Çünki, heç bir halda onların boğulmasının qarşısı alınan deyil. "Bəlkə də qaytardılar" düşüncəsində olanlar yanılırlar. Azərbaycan tərəfi öz torpaqlarını, özü də işğal olunmuş torpaqlarını işğalçılardan geri alır, bu haqq yoludur və geriyə yol yoxdur.

***İnam Hacıyev***




## Azərbaycanda 1364 nəfər COVID-19-a yoluxub, 14 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1364 yeni yoluxma faktı qeydə alınıb, 768 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 14 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 60 min 873 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 46 min 465 nəfər müalicə olunaraq sağalıb, 794 nəfər vəfat edib. Aktiv xəstə sayı 13614 nəfərdir. Ötən müddət ərzində 1 milyon 404 min 543 test aparılıb. Bugünkü test sayı isə 13290-dır.

## "Ermənistanın cəzasını döyüş meydanında Azərbaycan Ordusu kəsir"



"Ermənistan döyüş meydanında aciz vəziyyətə düşdüyünü və ağır məğlubiyyətə uğradığını yaxşı anlayır. Bu səbəbdən alternativ yollar axtarmaqla özlərini xilas etməyə çalışırlar. Paşinyan müharibənin ilk günlərində xarici ölkə rəhbərlərinə yalvarmaqla vəziyyətdən çıxmağa cəhd göstərsə də, bu, alınmadı. Beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü dəstəklədi". Bunu SİA-ya açıqlamasında QHT.az saytının rəhbəri, "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə deyib.

Onun sözlərinə görə, bir neçə ölkə rəhbəri Ermənistanı müdafiə etməyə çalışsa da, Azərbaycan Prezidenti İlham Əliyevin güclü iradəsini gördükdən sonra həmin ölkələr də geri çəkilməli oldu: "Həmişəki kimi, ermənilər öz xislətini yenidən göstərərək, hərbi əməliyyatlardan xeyli kənarda yerləşən Azərbaycan ərazilərinə raket zərbələri endirmək və mülki əhalinin sıx yaşadığı əraziləri hədəf almaqla Azərbaycan xalqının iradəsini qırmağa çalışdılar. Ermənistanın törətdiyi hərbi cinayət nəticəsində 100-ə yaxın vətəndaşımız həlak olub, 400-dən artıq şəxs isə yaralanıb. Bütün bu hadisələr döyüş meydanından kənarda baş verib. Lakin ölkə başçısı İlham Əliyevin qeyd etdiyi kimi, "Onlar Azərbaycan xalqının ruhunu düzgün hesablaya bilməmişdilər". Ermənilər, eyni zamanda, ötən dövr ərzində mülki əhaliyə kütləvi zərər vermək üçün kaset silahlardan və ağ fosforlu silahlardan istifadə edir. Bütün bu silahlar beynəlxalq konvensiyalarla qadağan edilib. Çünki bu hərbi sursatlar konkret hədəfə deyil, müxtəlif mülki əhalinin yerləşdiyi ərazilərə yönəlməklə xeyli insanın həyatına son qoya bilir".

C.Hüseynzadə bildirdi ki, artıq Ermənistanın qadağan olunmuş silahlardan istifadə etməsi ilə bağlı faktlar dünya mətbuatında da geniş yer alıb: "Eyni zamanda, ermənilərin həmin qadağan olunmuş silahlardan istifadə etməsi ilə bağlı "Amnesty International" və "Human Rights Watch" təşkilatları tərəfindən də təsdiqlənib. Beynəlxalq təşkilatlar təsdiq olunmuş bu faktlarla görə, Ermənistana qarşı ən azından müxtəlif qətnamələrin qəbul etməsi baş verməli idi. Çox təəssüf ki, bu baş vermir. Hazır ki, şəraitdə hər hansı qanunsuz fəaliyyətlərə görə, Ermənistana qarşı hər hansı cəza tədbirinin görülməsi real görünmür.Ermənistanın cəzasını döyüş meydanında Azərbaycan Ordusu kəsir. Amma qadağan olunmuş silahlardan istifadə bağlı bütün faktların toplanması vacibdir. Çünki növbəti mərhələdə yeni reallıqlara Azərbaycan informasiya və hüquq müstəvisində Ermənistanla yeni mübarizəyə qədəm qoyacaq".

***Gülyana***

# Uşaq qatili Ermənistan: Cavab verməyin zamanıdır!

***Zaman-zaman istər Azərbaycanda, istər Türkiyədə, istərsə də dünyanın müxtəlif ölkələrində silsilə terrorlar törətmiş erməni terrorçu qruplaşmalarının məqsədləri birdir - "Dənizdən-dənizə böyük Ermənistan dövlət" xəyallarını gerçəkləşdirməkdən ötrü hətta özlərinə düşmən olaraq elan etdikləri xalqların uşaqlarına belə rəhm etməmək. Bu, bir erməni xislətinin bariz və dəfələrlə sübuta yetirilmiş reallığıdır. Tanrının yaratdığı ən məsum varlıqlar olan körpələri qətlə yetirmək, onlara əl qaldırmaq xəstə təfəkkürlü ermənilər üçün tarix boyu "şan-şöhrət" sayılıb.***

### Dəyişməyən qəddarlıq, dəyişməyən qətl üsulları və dəyişməyən erməni terroru!

Azərbaycanın ərazi bötüvlüyünə qarşı qaldırılan torpaq iddialarının ardınca erməni terrorçularının uşaq qatili olmaq ənənələri davam etdi. İstər 1992-ci ilin Xocalı soyqırımında, istərsə sonrakı dövrlərdə və istərsə də bu gün Vətən Müharibəsi dövründə Tovuzda, Tərtərdə, Gəncədə, Bərdədə və digər ortaya çıxan rayonlarda dəhşətli faktlar ürpədicidir.

Nə qədər də ağır olsa da, hər dəfə bu faktları hər bir imkanda ictimailəşdirməli, gələcək nəsillərimizə çatdırmalı, təkrarlamalıyıq ki, milli unutqanlığımız baş verməsin! Çünki dəyişməyən qəddarlıq, dəyişməyən qətl üsulları və dəyişməyən erməni terroru cəzalandırılmalıdır ki, təkrarlanmasın.

Xüsusilə də, vəhşi erməni yazarı Zori Balayan kimi qan içən uşaq qatilinin xatirələri heç vaxt unutmamalıyıq. Belə ki, babalarının yırtıcı təbiətini özündə yaşadan "ASALA" erməni terror cəmiyyətinin ideoloqlarından hesab edilən yazıçı Zori Balayan Qarabağda günahsız körpələrimizin işgəncə ilə ölümünün bilavasitə iştirakçısı olaraq, əli qanlı cani şahidliyindən fəxr etdiyini yazır və üstəlik qətlə yetirilən azərbaycanlı uşaqların (!) "it" olduğunu deyir. Bunu ermənilər öz dilləri ilə də etiraf ediblər. Belə ki, polşalı erməni yepiskopu Simeon Lehatsi (XVI əsr) yazırdı: "Yunanlar bizə "İşkil", yəni itlər) deyib, tüpürüb bayıra atdılar...".

Göründüyü kimi, erməni terrorçuları həqiqətən də quduz it, quduz köpək olduqlarını deyə bilərik. Atalarımız əbəs yerə deməyiblər ki, "Suya düşən itlə yağışa düşən erməni arasında fərq yoxdur".

Beləliklə, bir xalqın ki, Zori Balayan, David Xerdiyan, Paşinyan kimi küçədə yaşayan və bu gün əzəldən torpağı olmayan və həyasızcasına onun-bunun qoltuğuna sığınaraq, onun-bunun dabanının yalayan şər, böhtan atan və bu gün də faşist xislətlərini göstərərk günahsız körpələrə, mülki əhaliyə atəş açaraq bu terrorçu hərəkətləri ilə "erməni qüruru" keçirənlər həqiqətən də xəstə, bədbəxt təfəkkürlü quduzlaşmış itlərdir!

### Qisas qiyamətə qalmayacaq...

Ancaq bu uşaq qatili olan quduzlaşmışlar bir daha anlamalıdırlar ki, qisas qiyamətə qalmayacaq və mütləq etdiklə-



*ZƏRİFƏ QULİYEVA, YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, "Modern ailə və inkişaf" İctimai Birliyinin sədri*

ri cinayətlərə görə cəzalarını alacaqlar. Görünür, elə bu səbədən də işğal etdikləri torpaqlar uğrunda sentyabrın 27-dən başlayan Vətən Müharibəsinə vhələ də bunu anlaya bilməyən terrorçu və faşist xislətli küçə "demokratı" əxlaqsız, mənəviyyatsız Ermənistanın baş naziri Nikol Paşinyan uşaq, körpə qatili əməllərini olmalarını növbəti dəfə Vətən Müharibəsi sayılan İkinci Qarabağ savaşında bir daha sübut etdilər. Bu dəfə onlar savaş meydanından 120 kilometr aralıda yerləşən Gəncə şəhərində yaşayış evlərinə və Bərdədə dinc əhalinin toplaşdığı meydana atdıqları raketlə göstərdilər. Bir ay içərisində düşmənin 27 il işğal etdiyi əraziləri geri qaytaran Azərbaycan Ordusunun ölümcül zərbələri qarşısında tab gətirməyən düşmən dinc əhaliyə, qocalara, körpələrə atəş açmaqla şərəfsizliklərini bir daha nümayiş etdirdilər. Nəticədə mülki əhali arasında 90 nəfər həlak oldu ki, onlardan 11-i uşaq, yaralanan 395 nəfərdən isə 48-i uşaq oldu.

### Prezident İlham Əliyev: "Onlar üçün nə əxlaq normaları var, nə şərəf, nə ləyaqət"

"Baxın, görün, biz kiminlə vuruşmağa məcburuq. Onlar üçün nə əxlaq normaları var, nə şərəf, nə ləyaqət. Ümumiyyətlə, müharibənin necə aparılması barədə anlayışları yoxdur",-deyən Prezident İlham Əliyev Rusiyanın İnterfaks agentliyinə verdiyi müsahibəsində bildirib.

Dövlət başçısı onu da deyib ki, bu alçaqlar həmişə saxta, yalançı, mənəviyyatsız olub: "Hətta atəşkəsin Ermənistan tərəfindən pozulması aydın olduqda belə. Moskvada atəşkəs əldə olunmasından heç bir gün keçməmiş onlar Gəncəyə zərbə endirdilər. İndi də, Vaşinqtonda atəşkəs razılaşdırıldıqdan bir gün sonra, özü də bunun üçün onlar yalvarırdılar. Axı, atəşkəs barədə yalvaran onlar idi. Moskvada da, indi də Fransa tərəfinin fəaliyyəti nəticəsində əldə edilmiş atəşkəs pozulub. Bir gün keçmədi, onlar Bərdəni atəşə tutdular. Buna qədər isə onlar Tərtərdə dəfn mərasimini atəşə tutmuşdular. Orada 4 nəfər həlak olmuşdu. Bu, qeyri-insani əməllər onu göstərir ki, baxın, görün, biz kiminlə vuruşmağa məcburuq. Onlar üçün nə əxlaq normaları var, nə şərəf, nə ləyaqət". Bundan artıq qeyri-insani davranış ola bilərmi? Bunu erməni terror düşüncəli "insanlardan" başqa kimsə edə bilərdimi? Heç faşist Almaniyası dövründə törədilən qəddarlıqlar bu qədər izafi olmamışdı...

### Prezident İlham Əliyev: "İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları!"

Bu gün quduzlaşmış Paşinyan artıq Qarabağ haqqında deyil, vəziyyətinin gündən-günə ağırlaşdığı Ermənistan dövlətinin mövcudluğu haqqında düşünməlidir. Quduzlaşmış, cinayətkar, təcavüzkar faşist xislətli Paşinyan anlamalıdır ki, Azərbaycanın güclü Silahoı Qüvvələri onları yerində otuzdurub və bundan sonra da yerində otuzduracaq. Dövlət başçımız xalqa müraciətində də bildirib ki, Güclü Ordumuz, rəşadətli əsgərlərimiz düşmənləri 30 il işğal altında saxladıqları torpaqlapımızdan iti qovan kimi qovurlar: "İndi biz göstərdik kimkimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!".

Budur, Azərbaycan xalqının, əsgərinin əzmi, rəhbərinə, xalqına, torpağına, Vətəninə sadiqliyi. Təcavüzkar və işğalçı Ermənistan gördü ki, xalq-iqtidar-ordu birliyinin nümunəsi QƏLƏBƏDİR! Həmçinin, bu vəhdətin nümunəsi qədirbilən xalqımızın öz Prezidentinin, Ali Baş Komandanının yanında olması, Onun hər sözünə, bütün qərarlarına sadiqliyidir. Məhz bu gün düşmən ordusu Azərbaycan əsgərinin qabağında aciz qalaraq döyüş meydanından qaçmağa məcbur olur. Bunu nəinki erməni xalqı, bütün dünya gördü və görür. Azərbaycan Prezidenti İlham Əliyev cənablarının dediyi kimi, "nə qədər gec deyilsə, düz yola gəl" və məsələnin sülh yolu ilə həllində verilən axırıncı şansdan istifadə et. Prezident İlham Əliyev oktyabrın 9-da Azərbaycan xalqına müraciətdə də bildirdi ki, Ermənistana axırıncı şans veririk, axırıncı şans: "Biz torpaqlarımızı azad edəcəyik, ərazi bütövlüyümüzü bərpa edəcəyik! Düşməni ondan sonra da qovacağıq. Mən bilirəm ki, Azərbaycan xalqı mənim bu sözlərimi bəyənibdir. Qovacağıq onları axıra qədər. Bayrağımız işğal edilmiş bütün torpaqlarda qaldırılacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!"

Bir də haqq yolunda addımlayanın köməyi çox, düşməni yox olar! Vaxt gələcək Sarkisyanlar, Paşinyanlar, neçəneçə yanlar qətlə yetirdikləri günahsız körpə, uşaq, yeniyetmə üçün cavab verməli olacaqlar. Və işğaldan azad olunan torpaqlarımızda dalğalanan bayrağımızı gördükcə quyruğu tapdalanmış köpək kimi hamıya saldıran ermənilərin qana həris cəllad babaları görbagor Andranik sayaq qulaqlarının kəsiləcəyi vaxt gələcək. Nahaq qan heç vaxt yerdə qalmayacaq! Ədalət mütləq zəfər çalacaq! Azərbaycan lap tezliklə ərazi bütövlüyünü bərpa edəcək. Uşaq qatillərinin ayağı Azərbaycan torpaqlarına bir daha dəyməyəcək! Heç şübhəsiz ki, Ermənistan törətdiyi insanlığa qarşı cinayət və terror əməllərinə görə beynəlxalq hüquq qarşısında da cavab verəcək. Onda hamı görəcək ki, qisas qiyamətə qalmayacaq, haqq öz yerini tutacaq!.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətlərində, yerli və xarici televiziya kanallarına verdiyi müsahibələrində qeyd etdiyi kimi: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

## Paşinyanın rəqibləri ona "dərin quyu" hazırlayır



Həbsdən çıxdıqdan sonra Ermənistan hakimiyyətinə müxalifətdə olan partiya lideri Qaqik Sarukyan bir nahar təşkil edib və sərbəst buraxılma məktubunu imzalayan bütün qüvvələrin nümayəndələrini oraya dəvət edib. SİA Ermənistana məxsus hayeli.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, Sarukyan çox ehtiyatlı davranır və öz fəaliyyətini Paşinyan hakimiyyətinin repressiyalarından çəkinərək davam etdirir.

Məlumatda qeyd olunur ki, bir çoxları müxalifət partiyası liderinin kifayət qədər təmkinli olduğuna diqqət çəkib. Hazırda, eyni zamanda erməni cəmiyyəti hesab edir ki, hakimiyyətin istefasını tələb etmək üçün Sarukyan radikal addımlar atmağa ehtiyac olmadığını düşünür və tərəfdarlarına da Paşinyan hakimiyyətini əleyhinə xəlvəti fəaliyyət tövsiyə edir. Bir sözlə, Nikol Paşinyanın rəqibləri saman altından su yeridir və onun üçün dərin quyu hazırlanır.

## "Ermənistanın əməlləri cinayət və terror üzərində qurulub"

"Ermənistan bu müharibəyə, savaşa başlayandan onun bütün hərəkətləri beynəlxalq qanunların pozulması ilə müşayiət olunur. Ümumiyyətlə, onların Azərbaycanın beynəlxalq aləmdə tanınan torpaqlarını işğal etməsi bir cinayətdir. Yəni başqa torpağa girmələri, işğal etmələri və işğal altında saxlamaları bir cinayətdir. Bundan əlavə müharibəni beynəlxalq konvensiyaların pozulması ilə aparırlar". Bunu SİA-ya açıqlamasında Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli deyib.



Onun sözlərinə görə, müharibənin gedişatında hərbi hissələrlə yanaşı mülki əhalinin də hədəfə götürülməsi, atəşə tutulması beynəlxalq konvenisyalarla yolverilməzdir: "Amma Ermənistan buna yol verir. İkincisi, mülki əhalini qadağan olunmuş silahlarla atəşə tutur, bu isə əlavə olaraq konversiyanın pozulması deməkdir. Bir sözlə, elə bir hadisə yoxdur ki, Ermənistan orda hansısa beynəlxalq konvensiyaların, hansısa tələblərini pozmasınlar. Bu təkcə hərbi hadisələrin gedişatına aid deyil. Bildiyiniz kimi, ermənilər azad media üzərinə də basqıya keçirlər. Onların cinayətləri haqqında yazan kütləvi informasiya vasitələrinə hücum edirlər. Yəni jurnalistlərə, hüquq müdafiə təşkilatlarına hücumlar edirlər, bütün bunlar bir daha göstərir ki, Ermənistanın erməni bütövlükdə qanunsuzluq, cinayət və terror üzərində qurulub".

M.Ələsgərli bildirib ki ermənilərin hərəkətləri bir dövlət hərəkəti deyil, bir terror təşkilatının terror qruplaşmasının hərəkətləridir: "Terror hərəkətləri isə bildiyiniz kimi, bütün beynəlxalq qanunlarla yasaqlanır. Məsələ ordadır ki, Azərbaycan ordusu ermənilərə layiqli cavablar verir. Eyni zamanda, ermənilərin dincə əhalini bombalamasını Azərbaycanın Baş Prokurorluğu tərəfindən araşdırılır, sənədləşdirilir, haqqında cinayət işi açılır və onlar beynəlxalq təşkilatlara təqdim olunurlar. Ümid edirik ki, toplanmış bu faktlar nəhayətdə Ermənistana qarşı beynəlxalq məhkəmələrin qərar çıxarması ilə nəticələnəcək. İşğalımız haqdır, Ermənistan döyüş bölgəsində, informasiya və diplomatiya savaşında məğlub olduğu kimi, bu məsələdə də məğlub olacaq. Nəhayət bizim torpaqlar azad olunandan sonra onun haqqında bir beynəlxalq məhkəmə başlatırmaq və bütün bu cinayətlərə görə cavab verməyə məcbur etmək mümkün olacaq".

**Gülyana**



# Saman çöpündən yapışan Ermənistan hakimiyyəti

***Sentyabrın 27-dən bəri Qarabağda Azərbaycanla Ermənistan arasında şiddətli döyüşlər gedir. Azərbaycan işğal olunmuş əraziləri azad etmək üçün əks-hücum əməliyyatı aparır. Erməni tərəfi, beynəlxalq hüquqa zidd olaraq, Azərbaycanın işğal olunmuş ərazilərində çox sayda silah yerləşdirməsinə baxmayaraq saysız-hesabsız itkilər verir. Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazisi ilə bağlı əvvəlki əksər toqquşmalardan fərqli olaraq indiki münaqişədə müasir silahlardan istifadə edilir.***

"Jamestown" nəşri Azərbaycan hərbçilərinin döyüş meydanında üstünlüyə sahib olduğunu yazır. Qeyd olunur ki, döyüş meydanında çox sayda müasir silahların istifadəsi Azərbaycanın taktiki imkanlarını əhəmiyyətli dərəcədə artırıb, eyni zamanda potensial insan itkilərini məhdudlaşdırıb. Bundan əlavə, Azərbaycanın taktiki üstünlükləri, yenilikləri Ermənistanın hava hücumundan müdafiə sisteminin imkanlarını daha da sarsıdıb. Doğrudur, müharibənin ilk günlərindən cəbhədə PUA-nın istifadəsi üstünlüklər yaradır, lakin Azərbaycanın uğuru təkcə qabaqcıl texnologiya ilə deyil, həm də üstün taktikalar sayəsində baş verir. Azərbaycan yeni bir hərbi strategiyadan istifadə edərək, Ermənistanın möhkəmləndirilmiş müdafiə xəttlərinə, istehkamlarına qarşı intensiv və dəqiq artilleriya zərbələri endirir. Bu yanaşma da göründüyü kimi, insan, canlı qüvvə itkilərini azaldır və bir sıra gözlənilməz halları aradan qaldırır.

Bu günə qədər Azərbaycan Ordusu bütün istiqamətlərdə durmadan irəliləyib. Azərbaycan Silahlı Qüvvələri Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlını, elcəcə də bu rayonların çoxlu sayda kəndlərini, digər yaşayış məntəqələrini də azad edib, beləliklə 30 ilə yaxın bir müddətdə ilk dəfə İran-Azərbaycan sərhədinə tam nəzarət təmin edilib. Ermənistana məxsus bir sıra mətbuat səhifələri yazır ki, Azərbaycan hərbçiləri indi Şuşa, qondarma respublikanın paytaxtı Xankəndinin azad olmasına yaxındırlar. Əslində isə, bu, indiyə qədər gizlədilən informasiyalar fonunda belə, Azərbaycanın uğurlarının, qələbəsinin etirafıdır.

Xarici güclər münaqişəyə qarışmadıqca, Azərbaycanın döyüş impulsu dəyişməz qalacaq. Bu o deməkdir ki, gələcək atəşkəs yalnız Bakının şərtləri ilə bağlanacaqdır. Necə deyərlər, güclü tərəf şərtləri diqtə etdiyi kimi, bundan sonra da şərti qoyan məhz Azərbaycan olacaq və o şərtlərin də ilk əvvəldən nə olduğu bəllidir.

Göründüyü kimi, bütün üstünlüklər Azərbaycan tərəfinə məxsusdur. Ən strateji yüksəkliklər ələ keçirilib, düşmənin 30 il müddətində qurulan istehkamları dağıdılıb və Azərbaycan Ordusu döyüşə nəzarət edir. Hər gün ölkə başçısı, Ali Baş Komandan Cənab İlham Əliyev müzəffər Azərbaycan Ordusunun işğaldan azad etdiyi yeni-yeni əraziləri elan edir, Azərbaycanın döyüş meydanında uğurlarını bəyan edir. Döyüş meydanında düşmənin istər canlı qüvvə, istər hərbi texnika, istər silah-sursat itgisini əks etdirən videogörüntülər də deyilənləri təsdiq edir. Bunu beynəlxalq müşahidəçilər də etiraf edirlər və hətta bir sıra hərbi ekspertlər Azərbaycanın ən yaxın zamanda mütləq qələbə əldə edəcəyini təsdiqləyirlər. Bir sözlə, reallıq, bizim qələbəmiz göz önündədir və bu faktlarda da öz əksini tapır.

Düşmən itgilər verməkdə davam edir. Artıq canlı qüvvə, hərbi texnika tapılmır ki, cəbhə xəttinə, döyüş bölgəsinə göndərilsin. Ötən əsrin ortalarından qalan silah, sursatı ermənilər istifadə edir. Ona görə ki, bu silahlar onların ödənişi müqabilində əldə edilməyib. Cənab Prezidentimizin də qeyd etdiyi kimi, çox kasıb, rəzalət içərisində olan Ermənistanın bu silahları almağa maddi imkanı yoxdur. Məhz ödəniş müqabilində deyil, hansısa şərtlər daxilində göndərilən Rusiya istehsalı olan silahlara əlbəttə ki, ermənilər hansısa tələb qoya bilməzlər. Bu baxımdan da ruslar cürbəcür xəlvət yollarla ermənilərə silah-sursat ötürə bilərlər, amma, necə deyərlər pulsuz olaraq bu ötürdükləri dünya bazarına çıxarılacaq silahlar ola bilməz. Çünki, müasir silahları Rusiya da dünya bazarına ixrac edir və satılmayan köhnəlmiş silahlar Ermənistan kimi bir işğalçı ölkəyə göndərilir və bu da həmin ölkənin daha da asılı vəziyyətə salınmasını təmin etmək məqsədi daşıyır.

Ola bilsin ki, ermənilər rusların bu ödənişsiz əsaslarla, özü də xəlvət yollarla silah ötürməsindən hələ də ruhlanırlar. Amma dərk etmirlər ki, əvvələ bu silahlar Azərbaycan Ordusunun silahlanması ilə müqaisə oluna bilməz. Digər tərəfdən də bu silahların da əvvəlkilər kimi ən qısa zamanda sıradan çıxarılacağını kimsə təkzib edə bilməz və yenə də ermənilərin gözləri göyə dikiləcək ki, görsünlər başlarına nə yağır. Belə olan halda, bu silahlar ermənilərin özlərini qırır, rəqiblərini yox. Çünki, döyüş meydanında silah baxımından da üstünlüyü Azərbaycan ələ alıbsa, deməli, bu silahlarla onlar özlərinə hökm kəsmiş olurlar. Ölüm hökmü.

Ermənistanın siyasi rəhbərliyi, işğalçı ölkənin hakimiyyəti vətəndaşlarını qırğına verir. Bilərəkdən məhv olmasına göz yumur. Hətta bu qırğının təşkilatçısı kimi durmadan çalışır. Bilə-bilə ki, hərbi-texnika təchizat, iqtisadi imkanlar, potensial baxımından Azərbaycan dəfələrlə üstünlüyə malikdir, hələ də erməni xalqı deyilən kütləyə bu ölkənin hakim dairələrinin yazığı gəlmir. Onlara aldadıcı məlumatlar verərək qələbələr vəd edirlər, halbuki, bilirlər ki, mütləq şəkildə qələbə Azərbaycana məxsusdur və bundan qaçılası deyil. Səbəb də öz hakimiyyətlərinin müddətini bir az da uzatmaqdır. Necə deyərlər, suda boğulan saman çöpünə də əl uzadar. İndi Ermənistan rəhbərliyinin lazımsız, vaxtı keçmiş silahlara əl üzatması da bu mənadadır. Çünki, başda Nikol Paşinyan olmaqla, bütün səlahiyyətlilərin "humanitar yardım" təyyarələrində gətirilən "yardıma" əl uzatmaları çarəsiz boğulmaları səbəbindəndir. Əslində isə, Ermənistan hakimiyyəti dək etməlidir ki, saman çöpü xilas yolu olmadığı kimi, aldıqları dırnaqası "humanitar yardım" da onlar üçün xilas yolu deyil.

Bir tərəfdən də, qondarma rejim rəhbərliyinin Dağlıq Qarabağdan qaçan, xəstə təxəyyüllü "başbilənlərdən" canını qurtaran erməni səlahiyyətlilərinin vəzifələrindən azad edilməsi əmrindən tutmuş, yolların bağlanılmasına, Ermənistan sakinlərinin, bütün ermənilərin səfərbərlik çağırışlarına qədər bütün addımları məhz xalqın, böyük kütlənin qırğını deməkdir ki, hazırki Ermənistan hakimiyyəti buna gözünü qırpmadan gedir. Araik Arutyunyan Dağlıq Qarabağdan İrəvana köçən sakinləri xəyanətkar adlandırdığı halda, öz dırnaqarası hakimiyyətinin qərargahını İrəvana daşıyıbsa, bu işğalçılara qaniçən adından başqa nə ad qoymaq olar?

Cəbhə xəttinə, döyüşə erməni qadınlarının da getdiyi faktları var və əslində bunu Paşinyan hakimiyyəti özü bəyan edir, hətta utanmadan bununla lovğalanır da. Bəzi erməni yazarlar, politoloqlar da üz tutur erməni kişilərinə və bunun onlar üşün utancverici olduğunu yazırlar. Ermənistana məxsus mətbuat səhifələri belə yazılarla doludur və hər yazıda erməni kişisinə erməni qadını nümunə çəkilir. Cənab Prezidentimiz demişkən, görün biz hansı düşmənlə üzüzəyik... Sözün əsl mənasında, qadınını qabağa verən düşmənlə, şərəfsizlə üzüzə gəlmək çox çətin məsələdir, amma, müzakirə mövzusu başqa bir məsələdir. Müzakirə mövzusu düşmənin öz qadınları, qoca, yaşlı vətəndaşları, hətta yeniyetmə uşaqları belə döyüşə səfərbər etməsi kimi qaniçən siması, daha doğrusu simasızlığıdır. Bu simasızlığa erməni xislətinə müvafiq şəkildə insanlar, "böyük Ermənistan" kimi bir xəstə təxəyyülə qurban verilir, qırğınına da göz yumulur. Özgə torpaqlarının zəbt edilməsi, işğal edilməsi yolunda anaları gözü yaşlı qoyan faşist niyyətlilər, indi həta ən ucuz məqama, bir kreslo, vəzifə üçün bütün xalqın varlığını qumara qoyub. Qarabağın əldə getdiyi an hakimiyyətinin əlindən çıxacağını bilən Paşinyan və onun komandası bir gün belə hakimiyyətdə qalmaq üçün yüzlərlə Ermənistan vətəndaşının canına qıyır. Bir necə gün hakimiyyətini saxlamaq üçün vətəndaşlarını qırğına verməklə də saman çöpündən yapışır bu erməni səlahiyyətliləri. Çünki, heç bir halda onların boğulmasının qarşısı alınan deyil. "Bəlkə də qaytardılar" düşüncəsində olanlar yanılırlar. Azərbaycan tərəfi öz torpaqlarını, özü də işğal olunmuş torpaqlarını işğalçılardan geri alır, bu haqq yoludur və geriyə yol yoxdur.

***İnam Hacıyev***

# Rusiyanın siyasi istemblişmenti erməniləri rədd edib

*Ermənilərin nümayəndə heyəti dövlət dumasının deputatları, "Vahid Rusiya" partiyasının nümayəndələri, eləcə də, Vladimir Jirinovskinin partiyası və özü ilə görüşsələr də əliboş geri qayıdıblar*



Ermənistan hakimiyyəti başda olmaqla, ölkənin siyasi partiyaları və ictimai-siyasi dairələri Rusiyanın onlardan üz döndərməsindən ciddi təlaş və narahat olmaqda davam edirlər. Belə ki, Paşinyan hökumətinin əvvəlinci gündən anti-Rusiya xarakterli çıxışlar etməsi, eyni zamanda Sorosun təlimatları əsasında fəaliyyət qurması, daha doğrusu, Rusiyanın erməni xəyanəti ilə qarşılaşması nəticədə Moskvanın ermənilərdən üz döndərməsi ilə müşayiət olunmaqdadır.

### Rusiyanın aparıcı siyasi fiqurları da açıq-aydın şəkildə bəyan edirlər ki, Rusiya övladlarının Qarabağ cəbhəsində ermənilərin yerinə ölməyə heç bir maraqları, istəkləri yoxdur

Əbəs deyil ki, Qarabağda işğalçılara qarşı başladılan əks-hücum əməliyyatları və torpaqlarımızın işğaldan azad olunması, əldə edilən qələbələrdən sonra ermənilər Rusiyaya yalvarırlar və xilas olunmaları üçün əllərində olan bütün imkanlardan istifadə etməyə çalışırlar. Amma fakt budur ki, ruslar daha erməniləri hesaba almır, onlara siyasi və s. dəstək verməmək üçün bir sıra dəlilləri ortaya qoyurlar. O cümlədən, artıq Rusiyanın aparıcı siyasi fiqurları da açıq-aydın şəkildə bəyan edirlər ki, Rusiya övladlarının Qarabağ cəbhəsində ermənilərin yerinə ölməyə heç bir maraqları, istəkləri yoxdur. Bu baxımdan, ard-arda Moskva səfərləri edən ermənilər oradan əliboş qayıtmalı olurlar. "Çiçəklənən Ermənistan" partiyasının bir neçə gün Moskvada sözün əsl mənasında partiyaların qapılarını sülənmələri də bu reallığı kifayət qədər sübuta yetirir.

### "Joxovurd": "Görüşlərin effektli olması barədə danışmaq çətindir"

Ermənistanın "Joxovurd" nəşri yazır ki, "Çiçəklənən Ermənistan" partiyasının nümayəndə heyəti oktyabrın 29-dan Moskvada olublar, ötən gün isə İrəvana geri dönüblər. SİA erməni KİV-lərinə istinadən xəbər verir ki, ermənilərin nümayəndə heyətinə parlamentin vitse-spikeri Vaqe Enfiacyan, Regional məsələlər və Avrasiyaya inteqrasiya daimi komissiyasının sədri Mikael Melkumyan, "Çiçəklənən Ermənistan" fraksiyasının katibi Arman Abovyan və fraksiyanın deputatı Naira Zoqrabyan qatılıblar.

"Əvvəlcə komissiyanın tərkibinə "Çiçəklənən Ermənistan" partiyasının qadınlar şurasının həmsədri Luiza Sarkisyan da daxil olmalı idi, lakin nəticədə onu Naira Zoqrabyan əvəzləyib", deyə bildirilən məlumatda o da qeyd olunur ki, ermənilərin nümayəndə heyəti Moskvada həm hakim, həm də müxalifət partiyalarının nümayəndələri ilə görüşlər keçirsələr də, səfərin nəticələri ilə bağlı heç nə danışmamaq qərarını veriblər.

"Görüşlər çoxsaylı olub, ancaq onun nə qədər effektli olması barədə danışmaq çətindir", deyə "Joxovurd" yazıb.

Nəşr həmçinin qeyd edib ki, ermənilərin nümayəndə heyəti ilk gündəcə Dövlət Dumasının deputatları, "Vahid Rusiya" partiyasının nümayəndələri, eləcə də, Vladimir Jirinovskinin partiyası, o cümlədən, onun özü ilə də görüşüblər.

Lakin görünən budur ki, onlar Rusiyanın siyasi elitalarından heç bir dəstək almağı bacarmayıblar və erməni deputatların danışmamaq barədə qərar verməmələri də buna işarə edir. Daha dəqiq desək, uzun illər Ermənistanı qanadları altında saxlayan Rusiyanın siyasi istemblişmenti artıq buna ehtiyacın olmadığını açıq-aydın sərgiləyiblər.

***Rövşən RƏSULOV***

# Ermənilərin saxta iddiaları və Qarabağın etnik tarixi

**“Qarabağ heç vaxt erməni mədəniyyətinin mərkəzi olmamışdır. Qarabağ mədəniyyəti vahid mərkəz olub, Azərbaycan xalqına məxsusdur” - İ.P.Petruşevski**

Ermənilərin özlərini dünyanın ən qədim xalqı hesab etməsi, Yaxın Şərq və Qafqazda “Böyük Ermənistan” adlı mifik dövlətləri haqda cəfəngiyyatları tarix elmində heç bir fakta, sənədə, dəlilə söykənməyən uydurmalardır. Bu uydurmalara dünyada özlərindən başqa heç kim inanmır, lakin bu onlara bu cür utopik saxta tarixi xəritələr düzəltməyə mane olmur (saxta “Böyük Ermənistan xəritəsi”- Azərbaycan Ordusu tərəfindən azad eilmiş ərazilərdə inzibati idarə binasında aşkar edilib-E.B.) .

## Erməni tarixinin əsaslandığı mənbələr onlara aid deyil

Bəzi erməni tarixçiləri bəyan edirlər ki, erməni xalqı 8 min il əvvəl formalaşıb, Ermənistan dövləti isə 4 min il əvəl yaranıb. Üstəlik, də Qafqaz, İranın şimalı və Türkiyənin şərqi guya “Böyük Ermənistan” dövlətinin ərazisi olub. Belə cəfəng iddialar dünya tarix elmində gülüşlə qarşılanır.

Ermənilərin öz tarixləri ilə fəal manipulyasiya etmələri tarix elmində heç nəyi dəyişdirmir. Lakin ermənilər bununla sakitləşmir, ona görə də qonşu xalqların, o cümlədən, Azərbaycan xalqının tarixini hər vasitə ilə təhrif etməyə çalışırlar.

Məqsədi Azərbaycan xalqına ləkə yaxmaq olan belə iftiralar konkret psixi xəstəliyin nəticəsidir. Əlbəttə, müxtəlif etnik qrupların vahid dövlətdə (məsələn, Azərbaycanda) sülh və qardaşlıq şəraitində, vahid cəmiyyətdə yaşamasını başa düşmək onlar üçün çətindir. Axı Ermənistan monoetnik ölkədir və belə hallar onlar üçün qəbuledilən deyil.

Alimlər ermənilərin belə davranışını erməni xalqının bu əraziyə genetik bağlılığının olmaması ilə izah edirlər. Ermənilərin tarixinə aid arxeoloji məlumatların azlığı səbəbindən bu xalqın etnogenezinin öyrənilməsinin özəyini linqvistik və antropoloji məlumatlar təşkil edir. Əlbəttə, hər bir xalq kimi, ermənilərin də tarixi var. Lakin ermənilərin tarixi kimi qələmə verilənlər arxeoloji tədqiqatlara, yaxud qədim abidələrə əsaslanmır.

Tədqiqatçılara antik və ya daha erkən dövrlərin elə məxəzləri məlum deyildir ki, orada ermənilər öz tarixləri haqqında nə isə demiş olsunlar. Qədim erməni şəhər mədəniyyətinin və ya fundamental tikililərin arxeoloji izləri nə Şərqi Türkiyənin ərazisində, nə də aktarışların xüsusi diqqətlə aparıldığı müasir Ermənistanın ərazisində aşkar edilib.

Arminlərin yaşadığı Arminiya ölkəsinin adına ilk dəfə İran şahı I Daranın (təxminən e.ə. 522-488-ci illər) kitabələrində rast gəlinir. Müasir İran şəhəri Həmədanın yaxınlığında paralel olaraq akkad, qədim fars və elam dillərində həkk edilmiş Nəqşi-Rüstəm və Bisütun kitabələrində qədim fars sözü Armina və elam sözü Harminuia qədim fars və elam mətnlərinin o yerlərində ortaya çıxır ki, akkad mətnində həmin yerdə Uraastu, yəni Urartu yazılıb. Şah I Dara təslim edilmiş 25 xalqın adını çəkir və onun tabeliyində olan torpaqların ölçülərini göstərir. Bu siyahıda haylar haqqında bir kəlmə də yoxdur, orada yalnız bugünkü ermənilərə aidiyyəti olmayan Arminiya coğrafi vilayəti var.




## Erməni etnogenezinin Qafqazda izi yoxdur

Eyni zamanda, müasir ermənilər antropoloji yekcinsliklə seçilmirlər. Bu da mürəkkəb etnogenez prosesi ilə bağlıdır (erməni etnosuna daxil olmuş etnik elementlərin müxtəlif miqrasiyaları nəticəsində). Ermənistan ərazisində qədim qəbiristanlıqlardan tapılmış kəllələr baş göstəricilərinə görə müasir ermənilərin baş göstəricilərindən kəskin fərqlənir. Öz irsi fiziki əlamətlərinə görə isə ermənilərin 16 antropoloji tipə bölünməsi tədqiqatçılarda heyrət doğurur: bir xalqda bu qədər antropoloji fərq ola bilməz. Doğrudan da, bu, yalnız assimilyasiyaya uğramış və mənşəyi ilə fərqlənən xeyli etnik qrupun mövcudluğu nəticəsində mümkün ola bilər.

Ermənilərin etnogenezini öyrənən tədqiqatçılar bilirlər ki, onların tərkibində assimilyasiyaya uğramış qaraçıların da müəyyən təbəqəsi vardır. Ola bilsin, bu səbəbdən ermənilər daimi yaşayış yerinə bağlı olmayıblar.

Uzun əsrlər boyu erməni-qriqorian kilsəsi tərəfindən ermənilərin tarixinə o qədər süni, uydurma, əfsanəvi, qondarma məqamlar gətirilib ki, hətta mütəxəssislər də nəyin həqiqət, nəyin yalan olmasını çox zaman dəqiq seçə bilmirlər.

Məsələn, erməni alimləri sübut etməyə çalışırlar ki, onların mənşəyi Türkiyə və Cənubi Qafqazdır. Onlar iddia edirlər ki, Urartu qədim erməni dövlətidir. Ancaq elmə məlumdur ki, urartların və Urartu dövlətinin dili hald və biayn dilləri idi, onlar hurrit dili ilə birlikdə hurri-urart dilləri ailəsinə mənsubdur. Onların dili e.ə IX-VI əsrlərə aid mixi yazılarından məlumdur. Gördüyümüz kimi, onun erməni dilinə heç bir aidiyyəti yoxdur.

Tarixi mənbələrə və faktlara əsaslanaraq, qeyd edək ki, hayların əcdadları muşk tayfaları kimmerlər tərəfindən Balkanlardan qovulduqdan sonra Mesopotamiyaya gəlib çıxıblar və az sonra o dövrdə tənəzzülə uğramış Urartu dövlətinin ərazisində peyda olublar. Muşklar burada yurd saldıqdan sonra yerli əhaliyə qatışmışlar. Yunanlar onlara yerləşdikləri Arminiya coğrafi ərazisinə uyğun ad verdilər- “erməni”.

## Qafqaz qədim və orta əsrlərdə: ermənilər burada yoxdur

Eramızın I minilliyinə aid müxtəlif mənbələrdə (yunan, ərəb, fars, Roma mənbələri) Kürdən cənubdakı ərazidə yalnız alban, sak, qarqar, sode və uti adları ilə məlum olan tayfalar haqqında məlumat verilir. Qarabağda erkən və orta əsrlərdə qədim türk tayfaları-Aran, Tərtər, Donqar, Peçenek, Hun, Qoros (Horos), Vərəndə, Tuğ, qarqarlar, hunlar, qoroslar, peçeneklər, qıpçaklar və xəzərlər yaşayırdılar. Bunların heç biri ermənilərə aid deyil.

2-ci minilliyin əvvəllərində də qədim Azərbaycan dövləti olan Albaniyanın 3 əsas bölgəsindən birinin- Arranın (Qarabağın yerləşdiyi Kür-Araz arası ərazidə) əhalisi türklərdən ibarət olduğu mənbələrdə öz əksini tapmışdır. XIII əsrin məxəzi olan “Əcaib əd-dünya”da məlumat verilir ki, “Türklər Arranda əsas etnik qrup idi. Arranda 100.000 türk süvarisi var idi”.

1727-ci ildə Dağlıq Qarabağın 5 mahalına mənsub kəndlərin tərtib olunmuş siyahısı erməni yalanlarını sübuta yetirən olduqca tutarlı dəlildir. Talış və ya Gülüstan, Xaçın, Çiləbörd, Vərəndə və Dizaq mahallarında yerləşən 196 kənddən ermənicə izah oluna bilən yalnız 2 kənd adı var:- Arçazor və Noraşen. Bütün bunlar bir daha sübut edir ki, ermənilər Qarabağa çox-çox sonralar gəlmiş və xristian albanlarla qaynayıb qarışmışlar.

Qarabağ əhalisinin maddi təsərrüfat, mədəniyyəti, inam və etiqadlarına aid zəngin etnoqrafik məlumatları təhlil edib, tarixi mənbələrə istinad edən İ.P.Petruşevski yazırdı: “Qarabağ heç vaxt erməni mədəniyyətinin mərkəzi olmamışdır. Qarabağ mədəniyyəti vahid mərkəz olub, Azərbaycan xalqına məxsusdur”

İran tarixçisi Məhəmməd Hafizzadə də fars dilində 2001-ci ildə Təbrizdə nəşr etdirdiyi “Qarabağ” adlı əsərində Qarabağ xanlığına ayrıca bölmə həsr etmişdir. Müəllif qeyd edir ki, “Qarabağ mahalı tayfaları mənşə etibarilə albanlar olmuşlar... Albaniyanın əhalisi heç vaxt erməni ola bilməzdi və bu ərazi Ermənistan da sayıla bilməzdi...”.

Abbasqulu Ağa Bakıxanov “Gülüstani-İrəm” əsərində Pənah xanın və İbrahimxəlil xanın hakimiyyətləri illərində Qarabağ xanlığının əhalisinin 90 faizinə qədərini islamı qəbul etmiş Azərbaycan türkləri, 9 faizə qədərini xristianlığı qəbul edən albanlar və 1 faizə qədərini isə azsaylı xalqlar təşkil etmələri öz əksini tapmışdır.

Göründüyü kimi, 2 əsr əvvələ kimi, Qarabağda erməni yoxdur. Burada erməni mədəniyyətinə, dilinə, tarixinə, memarlığına aid heç nə yoxdur. Ərazi qədim Alban torqpaqlarıdır. Albanların da kim olduğu dünya tarix elminə dəqiq məlumdur. Müxtəlif tayfalardan ibarət olan bu xalq burada qədim mədəniyyətin və dövlətçiliyin yaradıcısıdır. Bu tayfa və xalqların arasında ermənilərin də olduğunu dünyanın hemç bir tarixçisi, tarixi sənədi qeyd etmir.

(Ardı olacaq)

**Elçin Bayramlı**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

6 noyabr

Son səhifə

## “Başakşəhər” İstanbulda “Mançester Yunayted”ə aman vermədi



Noyabrın 4-də UEFA Çempionlar Liqasının qrup mərhələsinin növbəti oyunlarına start verilib. Belə ki, günün birinci oyunlarında İstanbulun “Başakşəhər” klubu İngiltərənin “Mançester Yunayted” komandası ilə üz-üzə gəlib. Gərgin keçən görüşə meydan sahibləri fəal başlayıblar. Matçın 13-cü dəqiqəsində Demba Ba hesabı açıb. Oyunun 40-cı dəqiqəsində istanbulluların yarımmüdafiəçisi Edin Viska komandasının ikinci qoluna imza atıb. Cəmi üç dəqiqə sonra Mançester təmsilçisinin hücumçusu Antoni Martial vurulan qollardan birinin əvəzini çıxıb. Bu qoldan sonra tərəflər cəhd göstərsələr də, heç biri fərqlənməyi bacarmayıblar. Beləliklə, “Başakşəhər” doğma meydanda “Mançester Yunayted”i məğlub edib.

## Fransalı aktyor Klod Jiro vəfat edib



“Anjelika” haqqında çəkilən silsilə filmlərdəki markiz Filip de Plessi-Belyer roluna görə tanınan fransalı aktyor Klod Jiro ömrünün 84-cü ilində vəfat edib. TASS agentliyi xəbər verir ki, bu barədə Fransanın “La Montagne” qəzeti məlumat yayıb. Məlumatda ölümün səbəbi göstərilməyib. Klod Jiro 1936-cı ildə Fransanın mərkəzində yerləşən Şamalyes kommunasında anadan olub. Aktyor 1958-ci ildə “Fırıldaqçılar” filmilə debüt edib. Həmin filmdə o, Jan-Pol Belmondo ilə səhnəni bölüşüb. Klod Jiro həmçinin Lui de Fyüneslə birgə “Ravvin Yakobun macəraları” (1973) komediyası və “Lənətə gəlmiş padşahlar” (1972) mini-serialı ilə də tanınıb.

## Lombardda vətəndaşa qarşı quldurluq edən şəxs tutulub

Nizami rayonunda quldurluq edən şəxs tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 4-də saat 12:45-də Nizami rayonu ərazisindəki lombardların birindən rayon mühafizə idarəsinə həyəcan siqnalı daxil olub. Dərhal hadisə yerinə gələn Nizami Rayon Mühafizə İdarəsinin əməkdaşları orada tapança ya oxşar əşya ilə hədə-qorxu gəlib pul tələb etmiş naməlum şəxsi saxlayaraq 25-ci polis şöbəsinə təhvil verib.



Araşdırmalarla quldurluğu törətməkdə şübhəli bilinən həmin şəxsin paytaxt sakini E.İsgəndərov və əlindəki tapançaya oxşar əşyanın isə alışqan tapança olması müəyyənləşdirilib. Hadisə ilə bağlı rayon polis idarəsi tərəfindən araşdırma aparılır.

## Hava şəraitindəki dəyişikliklər arterial təzyiq yaradır

Yaşından asılı olmayaraq son vaxtlar arterial təzyiqdən əziyyət çəkənlərin sayı artır. Arterial təzyiqin yüksəlməsi, daha dəqiq desək, hipertoniya ətrafımızda olanların tez-tez qarşılaşdığı əsas problemlərdəndir. Hipertoniyanın ilk dövrlərində xəstələrdə vaxtaşırı olaraq arterial təzyiqin yüksəlməsi, başağrıları, ürək döyüntüləri, bəzən ürək nahiyəsində ağrı, başın arxa nahiyəsində ağırlıq hissi yaranır.



Paytaxtdakı 22 nömrəli Birləşmiş Xəstəxananın həkim-kardioloqu Nüşabə Səfərovanın AZƏRTAC-a verdiyi məlumata görə, əksər vaxtlarda həmin əlamətləri yorğunluqla əlaqələndirirlər, lakin bunun səbəbi bir neçə amillə bağlı ola bilər: “Hava şəraitinin kəskin soyuması, istiləşməsi və yenidən geriyə dönməsi də ürək-damar sisteminə təsir göstərə bilər. Təzyiq xəstəliyinin kökündə duran səbəblərdən biri də damar mənşəlidir. Ona görə də mövsüm dəyişikliyi zamanı onu özlərində hiss edə bilərlər”.

Həmin xəstələrdə başgicəllənmə, əl və ayaq barmaqlarında keyləşmə, gözlərin qarşısında qığılcımların yaranması, yuxunun pozulması, tez bir zamanda yaranan yorğunluq kimi əlamətlər davamlı olaraq müşahidə edilir. Arterial təzyiq problemi ilə qarşılaşan xəstələr, ilk növbədə, qida rasionuna diqqət yetirməlidir.

“Hava soyuyan kimi, adətən, insanlar qida rasionuna turş və duzlu məhsullar əlavə etməyə, çox yağlı və xəmir xörəkləri ilə qidalanmağa başlayırlar. Stresli vəziyyətin olması və qida rasionuna əməl edilməməsi hipertoniyanı artıra bilər”, - deyə həkim-kardioloq əlavə edib. Vaxtında müalicə olunmayan hipertoniya xəstəliyi həyat üçün təhlükə mənbəyi rolu oynayır. Ona görə də mütləq davamlı şəkildə həkim nəzarəti altında olmaq lazımdır.

## FIFA prezidenti ilə bağlı Beynəlxalq Olimpiya Komitəsinə şikayət olunub

Barəsində cinayət işi açılan FIFA prezidenti Canni İnfantino ilə bağlı Beynəlxalq Olimpiya Komitəsinə şikayət daxil olub. AZƏRTAC xəbər verir ki, müraciət 2017-ci ildə futbol agentlərinin qanunsuz fəaliyyətlərinin araşdırılmasına başlayan “Sport 7” şirkətinin vəkili Filip Rents tərəfindən edilib.




Şikayətdə italiyalı funksionerin Olimpiya xartiyasının bir neçə bəndini pozduğu üçün dərhal qurumun İcraiyyə Komissiyasına üzvlükdən çıxarılması xahiş olunub. O, vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə, xidməti sirlərin pozulmasında və cinayət istintaqının aparılmasına mane olmaqda ittiham olunur. Qeyd edək ki, İnfantino 2020-ci ilin yanvarından Beynəlxalq Olimpiya Komitəsinin İcraiyyə Komissiyasının üzvüdür.

## Axtarışda olan 22 nəfər saxlanılıb



Respublikanın daxili işlər orqanları ötən gün ərzində törədilmiş 22 cinayətin üstünü “isti izlər”lə açıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış 15 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 22 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 13 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında baş vermiş bir ağır yol-nəqliyyat hadisəsi nəticəsində bir nəfər ölüb, bir nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 12 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 37 nəfər saxlanılıb.

## Dolların bu günə olan məzənnəsi



Azərbaycan Mərkəzi Bankı (AMB) noyabrın 6-na olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. AMB-dən xezerxeber.az-a bildirilib ki, bankın noyabrın 6-dan etibarən USD/AZN rəsmi məzənnəsi 1,7000 manat səviyyəsində müəyyən olunub.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
*“Azərbaycan” nəşriyyatında çap olunur*
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**